RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 160 (9905) 3 avqust 2025-ci il BAZAR

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



## Etimaddan başlanan zəfər yolu

Qətiyyətli dövlət xadimi İlham Əliyevin Azərbaycanın Baş naziri, daha sonra Prezidenti seçilməsi ilə respublikada hakimiyyətin dinc və konstitusion yolla ötürülməsi ənənəsi təmin olundu, cəmiyyətimizdə siyasi mədəniyyət ənənələri bərqərar oldu. Bu, regionda çevrilişlərin və qeyri-sabitliklərin baş verdiyi bir dövrdə Azərbaycanın daxili sabitliyini, inkişaf xəttinin ardıcıllığını qorumasına imkan verdi. Prezident İlham Əliyevin yüksək idarəçilik məharəti ilə ölkəmizə sabit və uzunmüddətli liderliyi dövlət institutlarının möhkəmləndirilməsinə xidmət etdi.

İqtisadi inkişaf və neft strategiyasının uğurla həyata keçirilməsi bu dövrün Azərbaycan üçün ən mühüm tarixi nailiyyətlərindəndir. Ulu Öndərin əsasını qoyduğu "neft strategiyası" Prezident İlham Əliyev dövründə tam reallaşdırıldı. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Tibilisi-Qars, "Cənub qaz dəhlizi" kimi nəhəng enerji-kommunikasiya layihələri həyata vəsiqə aldı. Azərbaycandan Avropaya birbaşa qaz ixracına başlandı. Bu layihələr nəticəsində Azərbaycan beynəlxalq arenada ən etibarlı tərəfdaşlardan birinə çevrildi, iqtisadi müstəqillik qazanmaqla yanaşı, siyasi müstəqilliyinin təməllərini daha da möhkəmləndirdi, beynəlxalq aləmdə ölkəmizin mövqeləri gücləndi.

Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda ordu quruculuğu istiqamətində tarixi işlər görüldü. Ölkənin Silahlı Qüvvələri dünyanın ən yaxşı təchiz olunmuş, yüksək döyüş ruhuna malik qüdrətli orduları sırasında qərarlaşdı. Nəhayət, Prezident İlham Əliyev 2003-cü ildən başlanmış dövrün ən mühüm strateji vəzifəsini uğurla həyata keçirdi - Ümummilli Lider Heydər Əliyevin yarımçıq qalmış arzusunu reallaşdıraraq "Ata vəsiyyəti"ni yerinə yetirdi - xalqımızı ən böyük hədəfinə çatdırdı, ordumuzun gücü ilə torpaqlarımızı qısa zamanda düşməndən təmizləyərək Azərbaycanın ərazi bütövlüyünə, suverenliyinə nail oldu. Azərbaycanın son 200 ildəki ən böyük nailiyyəti olan bu şanlı Zəfər cənab İlham Əliyevin təkcə hərbi deyil, həm də siyasi və diplomatik liderliyinin nəticəsidir. Bu Qələbə Azərbaycan Prezidentinin uzun illər ərzində addım-addım irəli apardığı sistemli siyasətin - ordu quruculuğu, cəmiyyətdə vətənpərvərlik tərbiyəsinin, vətəndaş məsuliyyətinin gücləndirilməsi, informasiya savaşı, beynəlxalq diplomatiyanın zirvəsi idi.

Azərbaycanın BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi (2012-2013), ölkəmizin Qoşulmama Hərəkatına uğurla sədrliyi (2019-2023), Avrovision Beynəlxalq Mahnı Müsabiqəsinə (2012), I Avropa Oyunlarına (2015), İslam Həmrəyliyi Oyunlarına (2017), COP29-a evsahibliyi (2024) Prezident İlham Əliyevin ölkəmizə rəhbərliyi dövründə Azərbaycanın beynəlxalq aləmdə gəlib çatdığı mövqeyin, qlobal nüfuzunun ayrı-ayrı göstəriciləridir.

Prezident İlham Əliyev müasir dünya siyasətinə həm də yüksək mənəvi dəyərlər gətirdi - dövlətimizin başçısının sözü ilə əməli həmişə üst-üstə düşür. Həmkarlarının da bəyan etdiyi kimi, Azərbaycan Prezidentinin hər sözü imzası qədər keçərlidir. Dövlətimizin başçısı qurulan tərəfdaşlıq münasibətlərinə, verilən sözlərə, ortaya qoyulan prinsiplərə hər zaman sadiqdir və başqalarından da bunu gözləyir. Ona görə də bu gün müasir dünya siyasətində Prezident İlham Əliyev şəxsiyyətinə çox böyük hörmət var.

Bu gün Azərbaycan bütün dünyada tolerantlıq məkanı, fərqli mədəniyyətlərin təmas yeri kimi tanınır, multikulturalizm təşəbbüslərini təşviq edir. Mədəniyyətlər arasındakı fərqlərin insanlar arasında fərqlərə çevrilməməsi üçün bütün imkanlardan istifadə edir. Azərbaycanın evsahibliyi ilə keçirilən beynəlxalq humanitar forumlar, 2008-ci ildən uğurla aparılan "Bakı prosesi" nüfuzlu beynəlxalq qurumlar tərəfindən təqdir olunur.

Prezident İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü siyasət ölkəmizin sivilizasiyalararası dialoqda fəal və hərtərəfli iştirakını daha da genişləndirir və bu, daha intensiv formalar kəsb edir. Azərbaycan Prezidenti bu cür forumların təşkili məqsədini belə izah edir: "Biz istəyirik ki, bütün xalqlar, bütün dinlərin nümayəndələri bir-biri ilə sıx təmasda olsunlar, bütün problemləri açıq şəkildə müzakirə etsinlər, öz fikirlərini bildirsinlər. Bakı, Azərbaycan belə mötəbər tədbirlərin keçirilməsi üçün artıq ənənəvi bir məkana çevrilmişdir.

2

## Azərbaycan təbii qazı Yaxın Şərqi daha yaxın etdi

### Suriya mavi yanacağımızı alan ilk Asiya ölkəsi oldu

Avqustun 2-də Türkiyənin Kilis şəhərində Azərbaycan qazının Türkiyə ərazisindən Suriyaya ixracının başlanması münasibətilə keçirilən tədbir deyilənləri əyani şəkildə təsdiq etdi. Məlum olduğu kimi, keçən ay ölkəmizə işgüzar səfər edən Suriya Ərəb Respublikasının keçid dövrü Prezidenti Əhməd Əl Şaraa Prezident İlham Əliyevlə görüş zamanı ölkəsinin siyasi, iqtisadi-ticari, mədəni, humanitar və digər sahələrdə əməkdaşlıqda maraqlı olduğunu demişdir. Görüşdə ölkələrimiz arasında xüsusilə enerji sahəsində əməkdaşlığın



vacibliyi qeyd edilmişdir. Suriyanın hazırda ciddi enerji problemi ilə üzləşdiyi bildirilmişdir. Bu xüsusda yaxın zamanlarda Azərbaycan qazının Türkiyə ərazisindən Suriyaya ixracı layihəsinin həyata keçiriləcəyi vurğulanmışdır və bunun Suriyanın enerji təhlükəsizliyinə töhfə verəcəyi qeyd olunmuşdur. Azərbaycanın Suriyanın energetika sahəsinin bərpasına töhfə vermək iqtidarında olduğu diqqətə çatdırılmışdır.

3

## "Azərbaycan qazından istifadə etməklə Suriya elektrik enerjisi təminatını iki dəfəyə yaxın yaxşılaşdıracaq"



Azərbaycanın yalnız region və Avropanın deyil, eyni zamanda Yaxın Şərqin də enerji təhlükəsizliyinin formalaşmasında rolu artmaqdadır. Regionda enerji təhlükəsizliyinin formalaşmasına və güclənməsinə ən çox töhfə verən təşəbbüslərdən biri məhz "Cənub qaz dəhlizi"nin reallaşması oldu. Bu dəhliz nəinki region, bütün Avropa üçün ən vacib təşəbbüslərdən sayılır. "Cənub qaz dəhlizi"nin reallaşması Prezident İlham Əliyevin siyasi iradəsi nəticəsində mümkün olub. Layihə müzakirə edilən zaman həm maliyyələşdirmə, həm də boru kəmərinin keçəcəyi coğrafi ərazilərlə bağlı fərqli yanaşmalar var idi. Bütün bunlara rəğmən, Azərbaycanın dəstəyi ilə region və qitə üçün əhəmiyyətli hesab olunacaq həmin layihə reallaşdı. Azərbaycanın reallaşdırdığı layihələr təbii qazın Türkiyəyə, Avropaya və artıq Suriyaya çatdırılmasını təmin edir. Məhz Prezident İlham Əliyevin siyasi iradəsi nəticəsində regional enerji təhlükəsizliyi daha da gücləndi", - deyə iqtisadçı bildirib.

3

## "Rusiyanın şovinist dairələri ölkələrinin Cənubi Qafqazdakı maraqlarına zərbə vurur"




Kreml əvvəldən başa düşməli idi ki, Rusiya sülhməramlıları tərəfindən Azərbaycan tərəfinin icazəsi olmadan torpaqlarımızda İvan Ayvazovskinin (Hovanes Ayvasyan) büstünün quraşdırılması beynəlxalq hüququn normalarında əks edilən prinsiplərə zidd olmaqla qanunsuz və ölkəmizin suverenliyinə münasibətdə hörmətsizlik idi. Bu mənada yaxşı olardı ki, ən azı sülhməramlılar Azərbaycanı tərk edərkən buraxılmış bu kobud səhvin nəticələrini aradan qaldırardı.

İşğaldan azad edilmiş ərazilərimizdə özünün də gözü ilə gördüyü Natəvan, Üzeyir bəy Hacıbəyli, Bülbül və digər mədəniyyət xadimlərimizin abidələrinə qarşı vandallıqlara, habelə Azərbaycan ərazisində törədilmiş dağıntılarla bağlı susması mədəniyyət siyasətinə məsul şəxs kimi cənab Şvıdkoyun Ayvazovskinin abidəsinin sökülməsinə münasibətdə həssaslığı sadəcə, sözün əsl mənasında, saxtakarlıqdır. Üstəlik, nə qədər gülünc olsa da, cənab Şvıdkoy məsələni Azərbaycanda Rusiya mədəniyyətinin "ləğv edilməsi" iddiaları ilə şərh etməyə çalışır.

5

## Avropa İttifaqının avtoritar meyillərə yuvarlanması qlobal azadlıqlar üçün nümunə deyil



Avropa İttifaqı ölkələrində hökumətlərin tənqid olunması getdikcə çətinləşir. Nifrət nitqi ilə fərqli düşüncə arasında sərhəd bulanıqlaşdırılır. Ənənəvi media orqanlarına üstünlük verilərkən alternativ platformalar susdurulur. Bu isə medianın müstəqilliyinə açıq müdaxilədir. Ən təhlükəli məqam odur ki, qərarverici mexanizmlər texnologiya şirkətlərinə deyil, bürokratik Avropa qurumlarına həvalə olunub. Bu, internetin və sosial medianın dövlət nəzarətinə keçməsi deməkdir. Əslində isə Avropa öz daxilində "yeni senzura nizamı" qurur. Azad cəmiyyətlər üçün bu, ciddi təhlükə siqnalıdır. Qərb uzun illər başqa ölkələri söz və ifadə azadlığına hörmət etməyə çağırsa da, indi öz daxilində əks istiqamətdə hərəkət edir. Avropa İttifaqının getdikcə avtoritar meyillərə yuvarlanması qlobal azadlıqlar üçün nümunə deyil, xəbərdarlıqdır.

Siyasi şərhçinin sözlərinə görə, rəqəmsal suverenlik adı ilə platformalara qarşı tətbiq edilən texnoloji sanksiyalar istənilən zaman siyasi rəqiblərə qarşı da istifadə oluna bilər. "Dezinformasiya" anlayışı geniş və qeyri-müəyyəndir, istənilən fikir bu çərçivəyə salına bilər. Bu isə "demokratiya maskasında diktatura" təəssüratı yaradır.

5

**22 il əvvəl 2003-cü il avqustun 4-də dövlətçilik tariximizdə mühüm hadisə baş verdi. Azərbaycan Respublikası Milli Məclisinin qərarı ilə cənab İlham Əliyev ölkəmizin Baş naziri seçildi və bu, Azərbaycanın siyasi tarixində mühüm dönüş nöqtəsinə çevrildi.**



# Etimaddan başlanan zəfər yolu

Qətiyyətli yeni milli liderin hökumət rəhbərliyinə gəlişi həm Azərbaycan, həm də regionumuz üçün mühüm siyasi proseslər fonunda baş vermişdi. O zaman ölkəmiz böyük bir strateji mərhələnin astanasında idi. Ümummilli Lider Heydər Əliyevin uğurla həyata keçirdiyi inkişaf kursunun nailiyyətləri sayəsində müstəqil Azərbaycan dövləti 1993-cü ildən sonrakı 10 il müddətində sürətli islahatlar yolu keçmiş, xalqımız və dövlətimiz üçün taleyüklü məsələlər həllini tapmışdı.

İlk növbədə, milli dövlətçiliyimizin əsası rolunu oynayan ictimai-siyasi sabitlik təmin edilmiş, milli birlik və qanunların aliliyinə söykənən vətəndaş cəmiyyətinin təməli qoyulmuşdu. İkincisi, hər bir dövlətin, onun yaşamasının qayəsini təşkil edən ölkə iqtisadiyyatı islahatlar hesabına yenidən qurularaq inkişaf yoluna çıxarılmışdı. Üçüncüsü, Ulu Öndər Heydər Əliyev Azərbaycan xalqının istək və arzularının ifadəsi olan, özünün bütün müvafiq təsisatlarına malik güclü, demokratik dövlət qurmuş, onun müstəqilliyinin dönməzliyinə təminat yaratmışdı.

## İnam və etibar

Ümummilli Lider əmin idi ki, yalnız milli birliyə, ictimai-siyasi sabitliyə malik, iqtisadiyyatı dinamik inkişaf edən, güclü dövlət təsisatları olan, demokratik və vətəndaş cəmiyyətinə əsaslanan müstəqil dövlətlə hər şeyi, o cümlədən ərazi bütövlüyünü və digər məsələləri həll etmək olar. Bu böyük dövlət adamı düşünürdü ki, Azərbaycan onun müəyyən etdiyi kursla addım-addım gələcəyinə doğru irəliləyərsə, gec-tez digər taleyüklü məsələlər, o cümlədən ölkəmizin ərazi bütövlüyü və suverenliyi problemi də öz həllini tapacaq. Buna qəlbən əmin idi. Lakin Ulu Öndərin səhhətində yaranmış problemlər təməli qoyulmuş siyasi kursun varisliyi məsələsini də aktuallaşdırırdı.

Ölkə isə mühüm siyasi hadisə ərəfəsində idi - 15 oktyabr 2003-cü ildə Azərbaycanda növbəti prezident seçkisi keçiriləcəkdi və artıq hazırlıqlar başlanmışdı. Həm Azərbaycandakı müxalif qüvvələr, həm də onları yönəldən xarici dairələr kifayət qədər fəallaşmış, cəmiyyətdə siyasi atmosfer gərginləşmişdi. Ölkə vətəndaşları bu gərginliyin, şəxsi mənafelərini Azərbaycanın maraqlarından üstün tutan antimilli qüvvələrin yenidən küçə və meydanlara tökülməsinin fəsadlarına bələd idilər. Onların öz məqsədlərinə çatacaqları halda müstəqilliyimizin ilk illərində olduğu kimi, Azərbaycan yenidən fəlakətlərə sürüklənə, ölkəmiz, cəmiyyətimiz aydın inkişaf yolundan sapına bilərdi. Bir tərəfdən də bəzi postsovet ölkələrində, o cümlədən Gürcüstanda, Ukraynada, Qırğızıstanda həyata keçirilən "rəngli inqilab" ssenariləri Azərbaycanda da bu təhlükənin real olduğunu göstərirdi. Belə bir reallıq fonunda vətəndaşlarımız ölkənin gələcəyinə görə məsuliyyəti Heydər Əliyevin ən layiqli varisinin üzərinə götürməsini arzulayır, bu statusda Ulu Öndərin siyasət məktəbində yetişmiş İlham Əliyevi görür, ona inanırdılar.

İlk növbədə cənab İlham Əliyev yeni və müstəqil Azərbaycan uğrunda ən ağır mübarizələrdə Ulu Öndər Heydər Əliyevlə çiyin-çiyinə addımlayırdı. Həyata keçirilən dövlət quruculuğu proseslərində, islahatlarda fəal iştirak edirdi. Azad bazar iqtisadiyyatının qanunauyğunluqlarına mükəmməl surətdə yiyələnmişdi. Gənclər siyasətinin hazırlanması və həyata keçirilməsində mühüm rol oynayırdı. Milli Məclisin deputatı, Azərbaycanın Avropa Şurası Parlament Asambleyasındakı nümayəndə heyətinin sədri və AŞ PA-nın vitse-prezidenti kimi ölkəmizin beynəlxalq aləmə inteqrasiyasında, respublikada aparılan çoxşaxəli islahatların, hüquqi dövlət, vətəndaş cəmiyyəti proseslərinin öz məqsədinə çatmasında tarixi xidmətləri göz önündə idi.

Cənab İlham Əliyev Azərbaycan Milli Olimpiya Komitəsinə başçılıq edirdi. İdman sahəsində əldə edilmiş tarixi nailiyyətlərlə, xüsusilə gənc nəsil üçün mükəmməl örnəklər yaradırdı. Sağlam həyat tərzini, fiziki və mənəvi hazırlığı, vətənpərvəlik tərbiyəsini cəmiyyətimizdə böyük bir dəyərə çevirirdi.

Azərbaycan Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti, Yeni Azərbaycan Partiyası sədrinin birinci müavini kimi məsul vəzifələrdə çalışırdı. Ulu Öndərin ötən əsrin 90-cı illərinin ortalarından reallaşdırdığı və ölkəmizin sosial-iqtisadi inkişafının rəhninə çevrilən neft strategiyasının icrasına dəyərli töhfələr verirdi. Bu strategiyanın Azərbaycan xalqının maraqlarına uyğun həyata keçirilməsi, regionda yeni bir iqtisadi-siyasi reallıq formalaşdırması, Azərbaycanın təşəbbüsü ilə qlobal enerji-kommunikasiya layihələrinin həyata vəsiqə qazanması həm də cənab İlham Əliyevin fədakar xidmətləri sayəsində mümkün olmuşdu.

Partiya quruculuğu işində də İlham Əliyev fəal idi. Gələcək lider müasir baxışları, yanaşmaları, yüksək diplomatik məharəti və intellektual davranışları ilə ölkəmizin siyasi mühitinə yeni bir mədəniyyət gətirirdi. Bu mühitdə yeni standartlar müəyyənləşdirir, ölkədə dövrün müasir çağırışlarına yönələn sağlam münasibətlər yaranırdı. Qarşıda duran məsələlər normal diskussiya məcrasına yönəldilirdi.

Bir sözlə, cənab İlham Əliyev xalqın bu inamını Azərbaycan Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti, Yeni Azərbaycan Partiyası sədrinin müavini, Milli Məclisin deputatı və Avropa Şurası Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin rəhbəri kimi çoxşaxəli məsul vəzifələrdə Azərbaycana qazandırdığı parlaq nailiyyətlər, yüksək təşkilatçılıq, idarəetmə bacarıqları ilə qazanmışdı.

Ən mühümü, cənab İlham Əliyev Azərbaycanın gələcək taleyini etibarlı əllərdə görmək istəyən və belə bir liderlə bağlı özünəməxsus yüksək meyarları olan Ulu Öndərin inamını qazana bilmiş, müxtəlif vəzifələrdə onun etimadını doğrultmuşdu. Bu inam təxminən üç ay sonra - 15 oktyabr prezident seçkisi ərəfəsində Ümummilli Liderin Azərbaycan xalqına 2 oktyabr 2003-cü ildəki tarixi müraciətində də öz əksini tapacaqdı: "Üzümü Sizə - həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Cənab İlham Əliyevin 2003-cü il avqustun 4-də ölkənin Baş naziri seçilməsi ilə prezident seçkisinə qədərki gərgin dönəmdə qeyri-müəyyənliyin, xaosun, ölkəmizə qarşı xarici təhdidlərin qarşısı alındı, daxili sabitliyin qorunması, Azərbaycanın öz inkişaf yolu ilə ardıcıl irəliləməsi təmin edildi.

## Müasir strateji dövrün yol xəritəsi

Yada salaq ki, 2003-cü il Azərbaycan üçün iqtisadi baxımdan da dönüş dövrü idi. Ümummilli Liderin siyasi iradəsi sayəsində 1994-cü ildə imzalanmış, icrasında ARDNŞ-nin birinci vitse-prezidenti kimi cənab İlham Əliyevin də yaxından iştirak etdiyi "Əsrin müqaviləsi"nin Azərbaycana gətirəcəyi tarixi uğurlara az qalırdı. Ölkədə neft gəlirlərinin tezliklə artacağı gözlənilirdi. "Üç dəniz əfsanəsi" sayılan Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac boru kəmərinin tikintisi də davam edirdi. Bütün bu layihələrin davamlılığı və siyasi sabitlik üçün idarəetmədə belə bir istiqamət vacib idi. Ulu Öndər Heydər Əliyevin başladığı iqtisadi və enerji layihələrinin davam etdirilməsi üçün idarəçilikdə təcrübəli və onun siyasi kursunu davam etdirəcək şəxsə ehtiyac vardı.

Bu baxımdan cənab İlham Əliyevin Azərbaycanın Baş naziri seçilməsi həm ölkə vətəndaşlarına, həm də beynəlxalq ictimaiyyətə yeni strateji dövrə keçid mərhələsində respublikanın siyasi sabitlik və idarəçilik baxımından yol xəritəsini təqdim etmiş oldu. Bu seçim qısa zamandan sonra zəmanəsinin ən parlaq ölkə liderlərindən biri kimi bütün dünyada tanınaraq böyük nüfuz qazanacaq dövlət xadiminin özünün də idarəçilikdə daha fəal və məsuliyyətli mövqe tutmasının, gələcək prezidentlik missiyası üçün yeni bir təcrübə mərhələsinin başlanğıcı idi. Bütün bu amilləri nəzərə alsaq, cənab İlham Əliyevin Baş nazir seçilməsi Azərbaycan hökumətində rəhbər dəyişikliyindən daha artıq siyasi məna daşıyırdı. Bu, ölkənin gələcək siyasi xəttinin formalaşmasında mühüm addım və yeni dövrün başlanğıcı idi. Belə bir əlamətdar hadisə Azərbaycan dövlətçiliyində sabitlik, ardıcıllıq və inkişaf prinsipinin əsaslandığı tarixi bir dönəmdir. Bunu 15 oktyabr 2003-cü ilin prezident seçkisində xalqın yekdil dəstəyi ilə Azərbaycan Respublikasının Prezidenti seçildikdən sonra cənab İlham Əliyevin rəhbərliyi ilə yaşanan tarixi reallıqlar, müstəqil dövlətimizə qazandırılan misilsiz nailiyyələr bir daha təsdiqləmiş oldu.

## "Ata vəsiyyəti"ni yerinə yetirmək qüruru

Qətiyyətli dövlət xadimi İlham Əliyevin Azərbaycanın Baş naziri, daha sonra Prezidenti seçilməsi ilə respublikada hakimiyyətin dinc və konstitusion yolla ötürülməsi ənənəsi təmin olundu, cəmiyyətimizdə siyasi mədəniyyət ənənələri bərqərar oldu. Bu, regionda çevrilişlərin və qeyri-sabitliklərin baş verdiyi bir dövrdə Azərbaycanın daxili sabitliyini, inkişaf xəttinin ardıcıllığını qorumasına imkan verdi. Prezident İlham Əliyevin yüksək idarəçilik məharəti ilə ölkəmizə sabit və uzunmüddətli liderliyi dövlət institutlarının möhkəmləndirilməsinə xidmət etdi.

İqtisadi inkişaf və neft strategiyasının uğurla həyata keçirilməsi bu dövrün Azərbaycan üçün ən mühüm tarixi nailiyyətlərindəndir. Ulu Öndərin əsasını qoyduğu "neft strategiyası" Prezident İlham Əliyev dövründə tam reallaşdırıldı. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Tibilisi-Qars, "Cənub qaz dəhlizi" kimi nəhəng enerji-kommunikasiya layihələri həyata vəsiqə aldı. Azərbaycandan Avropaya birbaşa qaz ixracına başlandı. Bu layihələr nəticəsində Azərbaycan beynəlxalq arenada ən etibarlı tərəfdaşlardan birinə çevrildi, iqtisadi müstəqillik qazanmaqla yanaşı, siyasi müstəqilliyinin təməllərini daha da möhkəmləndirdi, beynəlxalq aləmdə ölkəmizin mövqeləri gücləndi.

Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda ordu quruculuğu istiqamətində tarixi işlər görüldü. Ölkənin silahlı qüvvələri dünyanın ən yaxşı təchiz olunmuş, yüksək döyüş ruhuna malik qüdrətli orduları sırasında qərarlaşdı. Nəhayət, Prezident İlham Əliyev 2003-cü ildən başlanmış dövrün ən mühüm strateji vəzifəsini uğurla həyata keçirdi - Ümummilli Lider Heydər Əliyevin yarımçıq qalmış arzusunu reallaşdıraraq "Ata vəsiyyəti"ni yerinə yetirdi - xalqımızı ən böyük hədəfinə çatdırdı, Ordumuzun gücü ilə torpaqlarımızı qısa zamanda düşməndən təmizləyərək Azərbaycanın ərazi bütövlüyünə, suverenliyinə nail oldu. Azərbaycanın son 200 ildəki ən böyük nailiyyəti olan bu şanlı Zəfər cənab İlham Əliyevin təkcə hərbi deyil, həm də siyasi və diplomatik liderliyinin nəticəsidir. Bu Qələbə Azərbaycan Prezidentinin uzun illər ərzində addım-addım irəli apardığı sistemli siyasətin - ordu quruculuğu, cəmiyyətdə vətənpərvərlik tərbiyəsinin, vətəndaş məsuliyyətinin gücləndirilməsi, informasiya savaşı, beynəlxalq diplomatiyanın zirvəsi idi.

Azərbaycanın BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi (2012-2013), ölkəmizin Qoşulmama Hərəkatına uğurla sədrliyi (2019-2023), Avrovision Beynəlxalq Mahnı müsabiqəsinə (2012), I Avropa Oyunlarına (2015), İslam Həmrəyliyi Oyunlarına (2017), COP29-a evsahibliyi (2024) Prezident İlham Əliyevin ölkəmizə rəhbərliyi dövründə Azərbaycanın beynəlxalq aləmdə gəlib çatdığı mövqeyin, qlobal nüfuzunun ayrı-ayrı göstəriciləridir.

Prezident İlham Əliyev müasir dünya siyasətinə həm də yüksək mənəvi dəyərlər gətirdi - dövlətimizin başçısının sözü ilə əməli həmişə üst-üstə düşür. Həmkarlarının da bəyan etdiyi kimi, Azərbaycan Prezidentinin hər sözü imzası qədər keçərlidir. Dövlətimizin başçısı qurulan tərəfdaşlıq münasibətlərinə, verilən sözlərə, ortaya qoyulan prinsiplərə hər zaman sadiqdir və başqalarından da bunu gözləyir. Ona görə də bu gün müasir dünya siyasətində Prezident İlham Əliyev şəxsiyyətinə çox böyük hörmət var.

Bu gün Azərbaycan bütün dünyada tolerantlıq məkanı, fərqli mədəniyyətlərin təmas yeri kimi tanınır, multikulturalizm təşəbbüslərini təşviq edir. Mədəniyyətlər arasındakı fərqlərin insanlar arasında fərqlərə çevrilməməsi üçün bütün imkanlardan istifadə edir. Azərbaycanın evsahibliyi ilə keçirilən beynəlxalq humanitar forumlar, 2008-ci ildən uğurla aparılan "Bakı prosesi" nüfuzlu beynəlxalq qurumlar tərəfindən təqdir olunur.

Prezident İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü siyasət ölkəmizin sivilizasiyalararası dialoqda fəal və hərtərəfli iştirakını daha da genişləndirir və bu, daha intensiv formalar kəsb edir. Azərbaycan Prezidenti bu cür forumların təşkili məqsədini belə izah edir: "Biz istəyirik ki, bütün xalqlar, bütün dinlərin nümayəndələri bir-biri ilə sıx təmasda olsunlar, bütün problemləri açıq şəkildə müzakirə etsinlər, öz fikirlərini bildirsinlər. Bakı, Azərbaycan belə mötəbər tədbirlərin keçirilməsi üçün artıq ənənəvi bir məkana çevrilmişdir. Əlbəttə, bunun həm coğrafi, həm tarixi, həm də mədəni əsasları vardır. Çünki əsrlər boyu Azərbaycanda bütün xalqlar, bütün dinlərin nümayəndələri bir ailə kimi yaşamışlar. İctimai-siyasi quruluşdan asılı olmayaraq, heç vaxt Azərbaycanda milli, ya dini zəmində nəinki qarşıdurma, heç anlaşılmazlıq da olmamışdır. Bütün dövrlərdə Azərbaycanda xalqlar bir ailə kimi yaşamışlar, onları həmişə dostluq münasibətləri bağlamışdır. Biz çox şadıq ki, indi Azərbaycanın müstəqil ölkə kimi inkişaf etdiyi dövrdə bu müsbət meyillər daha da güclənir.

...Biz istəyirik ki, ölkəmizdə yaranmış bu təcrübə həm öyrənilsin, həm də bəlkə başqa ölkələr üçün maraq doğursun. Çünki bu, həqiqətən, nadir bir təcrübədir və "Bakı Prosesi"nin başlanması və uğurla davam etdirilməsi onu göstərir ki, biz ortaya siyasi iradə qoyduqda, məqsədə nail ola bilirik".

Bütün bunlar təbii ki, Azərbaycan Prezidentinin dünyaya, bəşəriyyətə töhfə verən siyasətidir.

## Yeni dünyanın yeni Azərbaycanı

Cənab İlham Əliyevin ölkəmizə rəhbərliyi dövründə vətəndaş-dövlət münasibətləri, ictimai məsuliyyət hissi daha da möhkəmləndi, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın şəxsində, milli dövlətçilik tariximizdə bir çox mütərəqqi ənənələr, o cümlədən birinci xanım institutu formalaşdı, Mehriban xanımın təşəbbüsü və rəhbərliyi ilə həyata keçirilən sosial-humanitar layihələr böyük faydalar verdi.

Bu illər dövlət idarəçiliyində "ASAN xidmət" və DOST xidmət modelləri, korrupsiyaya qarşı mübarizədə, dövlət xidmətlərinin şəffaflığında tarixi bir yenilik olan bu model bütün dünyada bir Azərbycan brendi kimi tanındı. Ölkəmizdə elektron hökumət, rəqəmsal iqtisadiyyat və startap ekosistemlərinin inkişafı sürətləndi. Azərbaycanda Dördüncü Sənaye İnqilabına keçid prosesləri geniş vüsət aldı.

Azərbaycan Prezidentinin siyasi iradəsi, qətiyyəti, strateji təşəbbüsləri nəticəsində ölkəmiz qlobal aləm üçün mühüm tranzit mərkəzinə çevrildi. Bu sahədə həyata keçirilən meqalayihələr təkcə iqtisadi deyil, həm də geosiyasi əhəmiyyəti ilə Azərbaycanın regional güc kimi rolunu artırdı. Dövlətimizin başçısı Ümummilli Lider Heydər Əliyevin faciələrdən xilas edərək aydın inkişaf yoluna çıxardığı Azərbaycanı daha özünəinamlı, müstəqilliyinin təməlləri daha möhkəm, milli hədəfləri daha aydın dövlətə çevirdi, yeni dünyanın Yeni Azərbaycanını yaratdı.

Bütün bunlar Prezident İlham Əliyevin rəhbərliyi ilə 22 il öncə başlayan yeni tariximizin davam edən möhtəşəm nailiyyətləridir.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

# 22 il öncə başlamış tarixi missiya

**Heydər Əliyev siyasi kursunun layiqli davamçısı, Azərbaycanın yüksəlişinin və möhtəşəm uğurlarının müəllifi, torpaqlarımızı işğaldan azad edən Müzəffər Sərkərdə, öz xalqının ehtiram və etimadını qazanmış Prezident… İlham Əliyevin dövlət başçısı kimi fəaliyyətini xarakterizə edərkən ilk olaraq məhz bu sadalananlar yada düşür. Məhz İlham Əliyevin sayəsində Azərbaycan tarixinin ən qüdrətli dövrünü yaşayır, regionda və dünyada söz və nüfuz sahibi olan dövlət kimi tanınır.**



Cənab İlham Əliyev hələ prezident seçilməzdən əvvəlki dövrdə öz işgüzarlığı, yüksək siyasi-diplomatik peşəkarlığı ilə Azərbaycanın inkişafına, dünyada nüfuz qazanmasına, o cümlədən respublikamızın siyasi, iqtisadi və ictimai həyatında nümunəyə çevrilən fəaliyyət ortaya qoymuşdu. Bu sırada cənab İlham Əliyevin hələ 1994-cü ildə Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi altında xarici ölkələrin neft şirkətləri ilə aparılan danışıqlarda iştirakını xüsusi qeyd etməliyik. O zaman danışıqların Azərbaycanın milli maraqları çərçivəsində başa çatmasında və bunun nəticəsi olaraq "Əsrin müqaviləsi"nin imzalanmasında Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti İlham Əliyevin müstəsna xidmətləri olmuşdu. "Əsrin müqaviləsi"nin imzalanmasından artıq 31 ilə yaxın vaxt ötür və indi də bu tarixi neft razılaşması Azərbaycanın inkişafına, xalqımızın rifahına xidmət edir, dövlətimizin milli maraqlarının qorunmasında mühüm rol oynayır.

1995-ci və 2000-ci illərdə cənab İlham Əliyev Azərbaycan Milli Məclisinin deputatı seçilmişdir. Millət vəkili kimi ölkənin siyasi-icitmai həyatına öz töhfələrini verən cənab İlham Əliyevin xüsusən Avropa Şurası Parlament Assambleyasında Azərbaycanın nümayəndə heyətinin sədri kimi fəaliyyəti respublikamızın parlamentarizm və diplomatiya tarixinin mühüm səhifələrindən biridir. Həmin dövrdə Azərbaycan ictimaiyyəti bir daha cənab İlham Əliyevin yüksək siyasi-diplomatik keyfiyyətlərinə şahidlik etmişdi. AŞ PA tribunasından Ermənistanın işğalçılıq siyasətinin və erməni faşizminin ifşa olunmasında, Azərbaycanın haqq səsinin dünyaya çatdırılmasında İlham Əliyevin AŞ PA-dakı fəaliyyəti mühüm rol oynamışdı. 2003-cü ilin yanvar ayında cənab İlham Əliyevin AŞ PA-nın sədr müavini və Büro üzvü seçilməsi isə ona göstərilən yüksək etimadın göstəricisi idi. AŞ PA-nın fəxri üzvü seçilməsi və xüsusi medalla təltif olunması da cənab İlham Əliyevə beynəlxalq səviyyədə göstərilən yüksək ehtiramdan xəbər verirdi.

1997-ci ilin iyul ayından cənab İlham Əliyev Azərbaycan Milli Olimpiya Komitəsinin (MOK) Prezidentidir. Həmin vaxtdan etibarən Azərbaycanda idmanın inkişafında yeni mərhələnin əsası qoyulmuş, respublikamızda Olimpiya hərəkatı vüsət almışdır. Bundan 3 il sonra - 2000-ci ildə Sidneydə keçirilən Yay Olimpiya Oyunlarında Azərbaycan idmançılarının 2 qızıl və bir bürünc medal qazanmaları ölkəmizdə idmanın inkişafının keyfiyyətcə yeni mərhələyə qədəm qoymasından xəbər verir. Bu yerdə onu da qeyd etmək yerinə düşər ki, məhz Sidneydə idmançılarımız Azərbaycanın müstəqillik tarixində müstəqil komanda şəklində ilk Olimpiya qızıl medalını qazanıblar.

Bunlarla yanaşı, Yeni Azərbaycan Partiyasının avanqard və aparıcı siyasi təşkilat kimi qarşısında duran vəzifələri layiqincə yerinə yetirməsində də İlham Əliyev fəal iştirak etmişdir. 1999-cu ildə Yeni Azərbaycan Partiyasının I qurultayında partiya sədrinin müavini, 2001-ci ildə - II qurultayda sədrin birinci müavini seçilməsi İlham Əliyevə göstərilən böyük etimad olmaqla, partiya fəaliyyətinə dinamizm gətirmiş, YAP-ın sıralarını daha da genişləndirmişdir.

Bütün bunlar cənab İlham Əliyevin siyasi-ictimai və iqtisadi sahələrdə geniş fəaliyyətindən xəbər verirdi. Elə bu işgüzarlığı və dinamik fəaliyyəti İlham Əliyevə Azərbaycan cəmiyyətində böyük nüfuz və etimad qazandırmış və o, 2003-cü ilin avqust ayının 4-də Milli Məclisin razılığından sonra Heydər Əliyevin fərmanı ilə Azərbaycan Respublikasının Baş naziri təyin olunmuşdur. Ulu Öndərin bu etimadı xalqımız tərəfindən böyük razılıq və rəğbətlə qarşılanmışdır.

22 il əvvəl Ulu Öndər Heydər Əliyevin Milli Məclisə göndərdiyi təqdimat sıradan bir konstitusion prosedur deyildi. Bu, Azərbaycanın milli maraqlarının qorunmasına, dövlətçiliyə və respublikamızın etibarlı gələcəyinin təmin olunmasına xidmət edən mühüm və tarixi siyasi hadisə idi.

Baş nazir təyin olunduğu gün jurnalistlərin suallarını cavablandıran İlham Əliyev demişdi: *"İlk növbədə onu deyə bilərəm ki, Prezident Heydər Əliyevin siyasi xəttini davam etdirəcəyəm. Bilirsiniz ki, Azərbaycan iqtisadiyyatında böyük uğurlar əldə edilib, ciddi nailiyyətlərimiz var. Azərbaycanda iqtisadi islahatlar həyata keçirilir və bunun nəticəsində ölkəmiz əsaslı şəkildə inkişaf edir. Hesab edirəm ki, qazandığımız təcrübəni və mövcud potensialı daha da genişləndirmək lazımdır. Hamımızın məqsədi bundan istifadə edib Azərbaycanı qüdrətli, güclü dövlətə çevirməkdir. Biz buna nail oluruq və mən də gələcək fəaliyyətimdə bu amala xidmət edəcəyəm. Mənim iqtisadi sahədə də kifayət qədər biliyim var. Məsələləri daha dərindən təhlil edib, konkret addımlar atacağıq".*

Cənab İlham Əliyev cəmi bir neçə ay Azərbaycanın Baş naziri oldu. Amma bu qısa dövrdə hökumət başçısı kimi Heydər Əliyevin siyasi xəttini uğurla davam etdirdi. Baş nazir İlham Əliyev 2003-cü ilin sentyabrında BMT Baş Məclisinin 58-ci sessiyasında çıxış etdi və bu çıxış bir daha onun yüksək siyasi-diplomatik peşəkarlığını nümayiş etdirdi. Hələ o zaman cənab İlham Əliyev mövcud BMT mexanizmlərinin zamanın tələbinə cavab vermədiyini, bu qurumda islahatlara ehtiyac olduğunu dünyaya bəyan etmişdi.

Ötən dövrdə Azərbaycanın inkişafı, əldə etdiyi sosial-iqtisadi nailiyyətlər cənab İlham Əliyevin hələ 2003-cü il avqustun 4-də Nazirlər Kabinetində hökumət üzvlərinə təqdim olunarkən və Baş nazir təyin edildiyi gün jurnalistlərin suallarını cavablandırarkən söylədiyi fikirlərin həyata vəsiqə aldığını təsdiq edir. 2003-cü ilin oktyabrında Azərbaycan Prezidenti seçilən cənab İlham Əliyev hələ Baş nazir olarkən qarşıya qoyduğu vəzifələri yeni siyasi missiyasında qətiyyətlə reallaşdırmış, Azərbaycanı tarixinin ən qüdrətli dövləti səviyyəsinə yüksəltmişdir.

Azərbaycanın əldə etdiyi bütün uğurlar Ulu Öndər Heydər Əliyev ideyalarının həyata vəsiqə almasının göstəricisidir. Torpaqlarımızın işğaldan azad edilməsi, ərazi bütövlüyümüzün bərpa olunması və Böyük qayıdışın həyata keçirilməsi Heydər Əliyev siyasətinin davamının təntənəsi, Prezident İlham Əliyevin qətiyyətinin, müdrikliyinin və siyasi uzaqgörənliyinin parlaq nəticəsidir.

***Nəsib MƏHƏMMƏLİYEV,***
***Milli Məclisin deputatı***

# İlham Əliyevin qətiyyətli enerji siyasəti sülh və əməkdaşlıq rəmzinə çevrilir

## Türkiyədə Azərbaycan qazının Suriyaya nəqlolunma mərasimi keçirilib









**Türkiyənin Kilis şəhərində Azərbaycan qazının Türkiyə ərazisindən Suriyaya nəqlinə başlanılması ilə bağlı tədbir keçirilib.**

AZƏRTAC xəbər verir ki, mərasimdə Azərbaycan, Türkiyə, Suriya və Qətərin hökumət nümayəndələri, rəsmi şəxslər iştirak ediblər.

Tədbirdə çıxış edən Azərbaycanın iqtisadiyyat naziri, SOCAR-ın Müşahidə Şurasının sədri Mikayıl Cabbarov bildirib ki, Azərbaycan qazının Türkiyə ərazisindən Suriyaya ixracına cari il aprelin 11-də Antalyada və iyulun 12-də Bakıda Azərbaycan Prezidenti İlham Əliyevlə Suriyanın keçid dövrü Prezidenti Əhməd Əl Şaraa arasında keçirilən görüşlərdə əldə edilmiş razılaşmalar əsasında, qısa müddət ərzində start verilib. Nazir qeyd edib ki, bu layihə Suriyanın enerji təhlükəsizliyinin təmin edilməsinə mühüm töhfə verəcək. Mikayıl Cabbarovun sözlərinə görə, Azərbaycan və Türkiyə kimi iki qardaş ölkə arasında bütün sahələri, o cümlədən enerji sektorunu əhatə edən strateji tərəfdaşlıq məhz bu tarixi əhəmiyyətə malik layihənin də sürətli şəkildə reallaşdırılmasına şərait yaradıb. O əlavə edib ki, hər iki ölkə Suriyanın yenidən qurulması və inkişafına dəstək göstərmək istiqamətində birgə fəaliyyət göstərir və bu sahədə əhəmiyyətli addımlar atılır.

M.Cabbarovun sözlərinə görə, Azərbaycan təbii qazının Türkiyə ərazisi ilə Suriyaya nəql olunması ölkəmizin enerji ixracı tarixində mühüm mərhələdir və Cənubi Qafqaz ilə Yaxın Şərq arasında yeni enerji körpüsünün əsasını qoyur. Azərbaycan qazının ixrac olunduğu ölkələrin sayının 14-ə çatdığını söyləyən nazir bildirib ki, SOCAR-ın planları daha böyükdür və hazırda SOCAR xaricdə qaz hasilatı layihələrində paylar əldə edərək şirkətə məxsus qazı yeni istehlakçı ölkələrə çatdırmağı planlaşdırır.

SOCAR-ın Müşahidə Şurasının sədri Azərbaycanın həyata keçirdiyi strateji enerji layihələrindən bəhs edərək, bu təşəbbüslərin ölkəmizin regional və qlobal enerji təhlükəsizliyinin təmin edilməsində əvəzsiz rola malik olduğunu bildirib. Nazir qeyd edib ki, Türkiyə-Suriya Təbii Qaz Boru Xəttinin açılışı ilə Azərbaycandan Suriyaya qaz nəqlinin başlanması ölkəmizin etibarlı və strateji enerji təchizatçısı olduğunu bir daha nümayiş etdirir. Bu layihə ölkəmizin qaz ixracı coğrafiyasının yeni istiqamətlər üzrə genişləndirilməsinə mühüm töhfələr verəcək.

Suriyanın energetika naziri Məhəmməd Əl Bəşir uzun illər davam edən müharibədən əziyyət çəkən Suriyada rifahın yaxşılaşdırılması və ölkənin bərpası istiqamətində göstərdiyi dəstəyə görə Azərbaycan və Türkiyə dövlətlərinə təşəkkürünü bildirib.

SOCAR ilə birlikdə Azərbaycan qazının Türkiyə-Suriya sərhədində təhvil verilməsini nəzərdə tutan SVOP (mübadilə) razılaşmasının imzalandığını bildirən Türkiyənin energetika və təbii sərvətlər naziri Alparslan Bayraktar kədərli və sevincli günlərdə daim Türkiyənin yanında olan Azərbaycanın bu layihədə də dəstəyini əsirgəmədiyini qeyd edib. Azərbaycanın təbii qazının Kilis vasitəsilə Suriyaya ixrac olunacağını söyləyən nazir "Yavuzlu Ölçmə" Stansiyasından gündəlik 6 milyon kubmetr təbii qazın nəql olunacağını bildirib.

A.Bayraktar Suriyaya qaz ixracı nəticəsində oradakı elektrik stansiyalarının da yaxın zamanda fəaliyyətə başlayacağını deyib. İlkin mərhələdə Suriyaya ildə 2 milyard kubmetrə qədər təbii qaz ixracı mümkün olacaq. Bu təbii qaz vasitəsilə təqribən 1200 meqavatlıq quraşdırılmış güc aktivləşəcək. Bu layihə Suriyada həyatın normallaşmasına çox ciddi töhfə verəcək, insanların həyat səviyyəsini yüksəldəcək və ölkəyə geri qayıdış prosesini sürətləndirəcək.

Azərbaycan nümayəndə heyətinin səfəri çərçivəsində həmçinin Türkiyə və Suriya nümayəndə heyətləri ilə ikitərəfli görüşlər təşkil olunub. Görüşlərdə enerji sektorunda əməkdaşlığın genişləndirilməsi imkanları nəzərdən keçirilib, qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## Azərbaycan qazının Türkiyə ərazisindən Suriyaya nəqlinə başlanılıb




**Qardaş ölkənin Kilis şəhərində Azərbaycan qazının Türkiyə ərazisindən Suriyaya nəqlinə başlanılıb.**

AZƏRTAC xəbər verir ki, bu münasibətlə keçirilən mərasimdə iştirak edən Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov, Türkiyənin energetika və təbii sərvətlər naziri Alparslan Bayraktar, Suriyanın energetika naziri Məhəmməd Əl Bəşir və Qətər İnkişaf Fondunun rəhbəri Fəhad Həməd Əl-Sulaiti Azərbaycan qazının Suriyaya ötürülməsini təmin edən boru kəmərinin açılışını birgə həyata keçiriblər.

## Azərbaycan təbii qazı Yaxın Şərqi daha yaxın etdi

### Suriya mavi yanacağımızı alan ilk Asiya ölkəsi oldu

**Azərbaycan qazını alan ölkələrin sayı getdikcə artır. Son hadisələr göstərdi ki, indiyədək əsasən Avropa ölkələrinə təbii qaz ixrac edən Azərbaycan üçün hazırda yeni bir istiqamət - Yaxın Şərq istiqaməti də formalaşır. Bu, ölkəmizin enerji diplomatiyasında növbəti mərhələnin başlanğıcı deməkdir.**

Avqustun 2-də Türkiyənin Kilis şəhərində Azərbaycan qazının Türkiyə ərazisindən Suriyaya ixracının başlanması münasibəti ilə keçirilən tədbir deyilənləri əyani şəkildə təsdiq etdi. Məlum olduğu kimi, keçən ay ölkəmizə işgüzar səfər edən Suriya Ərəb Respublikasının keçid dövrü Prezidenti Əhməd Əl Şaraa Prezident İlham Əliyevlə görüş zamanı ölkəsinin siyasi, iqtisadi-ticari, mədəni, humanitar və digər sahələrdə əməkdaşlıqda maraqlı olduğunu demişdir. Görüşdə ölkələrimiz arasında xüsusilə enerji sahəsində əməkdaşlığın vacibliyi qeyd edilmişdir. Suriyanın hazırda ciddi enerji problemi ilə üzləşdiyi bildirilmişdir. Bu xüsusda yaxın zamanlarda Azərbaycan qazının Türkiyə ərazisindən Suriyaya ixracı layihəsinin həyata keçiriləcəyi vurğulanmışdır və bunun Suriyanın enerji təhlükəsizliyinə töhfə verəcəyi qeyd olunmuşdur. Azərbaycanın Suriyanın energetika sahəsinin bərpasına töhfə vermək iqtidarında olduğu diqqətə çatdırılmışdır.

Əhməd Əl Şaraa hazırda ölkəsinin üzləşdiyi ciddi enerji problemlərinin həllində Azərbaycanın töhfəsinin əhəmiyyətini vurğulayaraq bunun Suriyanın inkişafına xidmət etdiyini demişdir.

İndiyədək Azərbaycandan 12 ölkə - Gürcüstan, Türkiyə, Bolqarıstan, Yunanıstan, İtaliya, Rumıniya, Macarıstan, Serbiya, Sloveniya, Xorvatiya, Şimali Makedoniya və Slovakiyaya qaz ixrac edirdi.

Göründüyü kimi, bu siyahı getdikcə genişlənir. Çünki ölkəmizdən qaz almaq üçün yeni müraciətlər alınır.

"Cənub qaz dəhlizi"nin genişləndirilməsi ixrac marşrutlarının şaxələndirilməsinə imkan verir. Bolqarıstanın Sofiya şəhərində 2022-ci il oktyabrın 1-də istifadəyə verilən Yunanıstan-Bolqarıstan Qaz İnterkonnektoru və Serbiyanın Niş şəhərində 2023-cü il dekabrın 10-da istismara daxil olan Bolqarıstan-Serbiya Qaz İnterkonnektoru ixracın diversifikasiyasında mühüm rol oynayır. Qaz ixracı üçün yeni infrastrukturların yaradılması gündəmdə olan məsələdir. Çünki Azərbaycanın enerji strategiyası getdikcə inkişaf edir. Ölkəmiz artıq yalnız ənənəvi tərəfdaşlarla deyil, həm də yeni regional bazarlarla əlaqələrini möhkəmləndirir.

Suriyaya qaz ixracı Türkiyə üzərindən ildə 1 milyard kubmetr həcmində planlaşdırılır. Beləliklə, ölkəmizlə Suriya arasında yeni istiqamət Azərbaycan qazının sözügedən ölkənin bazarına çıxarılmasıdır. Azərbaycan qazı üçün dünyada rəqabət artır, Azərbaycan qazının diversifikasiyası üçün imkanlar genişlənir. Azərbaycan təkcə Avropa bazarına deyil, Yaxın Şərq ölkələrinə də öz qazını ixrac edir.

Onu da qeyd edək ki, Azərbaycan qazının Yaxın Şərqə ixracı ilə bağlı mühüm texniki və logistika məsələləri də sürətlə həll olunur. Belə ki, Türkiyə ilə Suriyanı birləşdirən qaz kəməri artıq bərpa edilib və bu xətt kommersiya qaz nəqlinə hazır vəziyyətə gətirilib. Daha önəmli bir məqam da var: Suriyanı İordaniya ilə birləşdirən, lakin müharibə illərində dağıdılmış digər qaz kəmərinin də yenidən qurulması perspektivləri dəyərləndirilir.

Bu layihənin reallaşması Azərbaycan qazının Suriyadan keçməklə İordaniyaya, hətta Misirə qədər nəqlinə geniş yol açacaq. Belə bir marşrutun formalaşması Azərbaycanın qaz ixrac coğrafiyasını daha da şaxələndirəcək və enerji bazarlarında nüfuzunu artıracaq.



Eyni zamanda ölkəmizin elektrik enerjisi istehsalçısı və ixracatçısı kimi də qarşısında yeni imkanlar açılır. Azərbaycan Yaxın Şərq regionuna da elektrik enerjisi ixrac edə bilər.

Suriyanın bu prosesdə yalnız istehlakçı yox, həm də tranzit ölkə qismində iştirakı mühüm önəm daşıyır. Bu, həm regional əməkdaşlıq formatlarının genişlənməsinə, həm də Azərbaycan qazının ərəb dünyasına çıxışına real zəmin yaradır. Beləliklə, Azərbaycan Avropa ilə yanaşı, həm də Yaxın Şərq ölkələri üçün etibarlı enerji tərəfdaşı olacaq.

Ümumiyyətlə, Azərbaycan-Suriya əlaqələri eyni zamanda Azərbaycanın Yaxın Şərq siyasəyinin bir hissəsidir. Azərbaycan Avropa, Mərkəzi Asiya istiqamətində fəal siyasət yürütdüyü kimi Yaxın Şərq regionunda da fəallığı ilə seçilir. Prezident İlham Əliyevin bu siyasəti nəticəsində Azərbaycan hər yerdə olduğu kimi, Yaxın Şərq regionunda da etibarlı tərəfdaş kimi tanınır.

***Flora SADIQLI, "Azərbaycan"***

## "Azərbaycan qazından istifadə etməklə Suriya elektrik enerjisi təminatını iki dəfəyə yaxın yaxşılaşdıracaq"

**"Ötən gündən başlayaraq Azərbaycan qazı Suriyaya nəql edilir. Suriya Azərbaycan qazını istehlak etməklə öz enerji təhlükəsizliyini gücləndirən 13-cü ölkə olacaq. İndiyədək Azərbaycan qazı 12 ölkəyə ixrac edilirdi".**



Bu fikirləri "Azərbaycan" qəzetinə Milli Məclisin deputatı Vüqar Bayramov deyib. O bildirib ki, Azərbaycan qazı Suriyaya gündəlik 6 milyon kubmetr ötürmə qabiliyyətinə malik olacaq Kilis-Hələb kəməri vasitəsilə nəql ediləcək. Bu, o deməkdir ki, həmin kəmərin illik ötürmə qabiliyyəti 2 milyard kubmetrədək artacaq: "Azərbaycan qazı vasitəsilə Hələbdə elektrik enerjisi əldə ediləcək. Ümumiyyətlə, 1200 meqavata yaxın əlavə istehsal planlaşdırılır. Bütövlükdə Azərbaycan qazından istifadə etməklə Suriya daxili elektrik enerjisi təminatını 2 dəfəyə yaxın yaxşılaşdıra biləcək. Suriyanın enerji təhlükəsizliyinə töhfə Azərbaycanın da geosiyasi mövqeyini gücləndirəcək".

Deputat vurğulayıb ki, Azərbaycanın yalnız region və Avropanın deyil, eyni zamanda Yaxın Şərqin də enerji təhlükəsizliyinin formalaşmasında rolu artmaqdadır. Regionda enerji təhlükəsizliyinin formalaşmasına və güclənməsinə ən çox töhfə verən təşəbbüslərdən biri məhz "Cənub qaz dəhlizi"nin reallaşması oldu. Bu dəhliz nəinki region, bütün Avropa üçün ən vacib təşəbbüslərdən sayılır. "Cənub qaz dəhlizi"nin reallaşması Prezident İlham Əliyevin siyasi iradəsi nəticəsində mümkün olub. Layihə müzakirə edilən zaman həm maliyyələşdirmə, həm də boru kəmərinin keçəcəyi coğrafi ərazilərlə bağlı fərqli yanaşmalar var idi. Bütün bunlara rəğmən, Azərbaycanın dəstəyi ilə region və qitə üçün əhəmiyyətli hesab olunacaq həmin layihə reallaşdı. Azərbaycanın reallaşdırdığı layihələr təbii qazın Türkiyəyə, Avropaya və artıq Suriyaya çatdırılmasını təmin edir. Məhz Prezident İlham Əliyevin siyasi iradəsi nəticəsində regional enerji təhlükəsizliyi daha da gücləndi", - deyə iqtisadçı bildirib.

V.Bayramov qeyd edib ki, bütövlükdə Azərbaycan qazının Suriyaya nəql edilməsi tarixi hadisədir. Uzun müddət vətəndaş müharibəsi yaşayan və əsasən dağıdılan Suriya yeni mərhələdə Azərbaycan qazı vasitəsilə öz enerji təhlükəsizliyini gücləndirəcək.

***Əsmər QARDAŞXANOVA, "Azərbaycan"***

## *Alparslan BAYRAKTAR:* "Yaxın zamanda Türkiyəyə bütün enerji resursları Zəngəzur dəhlizi üzərindən ötürüləcək"

**"Yaxın zamanda Türkiyəyə bütün enerji resursları Zəngəzur dəhlizi üzərindən ötürüləcək və logistik yollar birləşdiriləcək".**

AZƏRTAC xəbər verir ki, bunu Türkiyə-Suriya qaz boru kəmərinin açılış mərasimində Türkiyənin energetika və təbii sərvətlər naziri Alparslan Bayraktar azərbaycanlı jurnalistlərə açıqlamasında bildirib.

O qeyd edib ki, hazırda Azərbaycandan Türkiyəyə elektrik enerjisi Gürcüstan ərazisindən keçməklə ötürülür. Bayraktarın sözlərinə görə, Orta Asiyada yerləşən digər enerji mənbələri və logistik marşrutlar Azərbaycan üzərindən Türkiyəyə, oradan isə Avropaya çatdırılacaq.

Nazir vurğulayıb ki, Azərbaycandakı təbii sərvətlər - neft, qaz, bununla yanaşı, elektrik enerjisinin Türkiyəyə ixracı ilə bağlı bütün layihələr birgə icra olunur. Bu istiqamətdə mühüm irəliləyişlərin olduğunu diqqətə çatdıran Bayraktar deyib: "Bu günədək həyata keçirilən layihələrə misal olaraq Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum kəmərləri, eləcə də Naxçıvan-Türkiyə elektrik interkonnektorunu qeyd edə bilərəm".

## *AKP rəsmisi:* "Azərbaycan qazının Suriyaya nəql olunması əlaqələrimizi daha da gücləndirəcək"

**"Azərbaycan qazının Türkiyə ərazisindən keçərək Suriyaya nəqli qardaş ölkə ilə əlaqələrimizi daha da gücləndirəcək".**

Bu sözləri Türkiyə-Suriya təbii qaz boru kəmərinin açılış mərasimində qardaş ölkənin hakim Ədalət və İnkişaf Partiyasının Elbəyli rayonu üzrə təşkilatının sədri Nəcməddin Dönməz jurnalistlərə açıqlamasında deyib.

Onun sözlərinə görə, bu, tarixi hadisədir. "Belə hadisənin iştirakçısı olmaqdan, belə bir mühüm tədbirdə iştirak etməkdən qürur duyuram. Ümid edirəm ki, Suriyanın bərpasında, enerji təhlükəsizliyinin artırılmasında Azərbaycan bundan sonra da öz təşəbbüslərini davam etdirəcək", - deyə N.Dönməz qeyd edib.

## *Hulusi KILIÇ:* "Azərbaycan qazının tədarükü Suriya xalqı üçün tarixi bir hadisədir"

**"Azərbaycan qazının Suriyaya tədarükünün başlanması bütün region üçün əlamətdar hadisədir. Bu, həmçinin Suriya xalqı üçün tarixi bir gündür. Bakı əməldə nümayiş etdirdi ki, "əsl dost dar gündə tanınır".**

Bu fikri müsahibəsində Türkiyənin Azərbaycandakı sabiq səfiri, "İMZA" Sosial İnkişafa Dəstək İctimai Birliyinin Türkiyədəki nümayəndəsi, Türkiyə-Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Fondunun (TADİV) İdarə Heyətinin üzvü Hulusi Kılıç ifadə edib.

Onun sözlərinə görə, Azərbaycanın Yaxın Şərqdəki uğurlu xarici siyasəti də Prezident İlham Əliyevin düşünülmüş qərarlarına əsaslanır. Sabiq səfir Antalyada keçirilən IV Diplomatiya Forumu çərçivəsində Azərbaycan və Suriya liderlərinin aprel görüşünü xatırladıb; məhz bundan sonra Prezident İlham Əliyevin tapşırığına əsasən, Baş nazirin müavini Samir Şərifovun rəhbərlik etdiyi Azərbaycan nümayəndə heyəti Dəməşqə səfər edib, burada münaqişədən sonra ölkənin bərpası prosesində Suriya hakimiyyətinin problemləri və ehtiyacları ilə tanış olub.

TADİV İdarə Heyətinin üzvü Suriyanın keçid dövrü Prezidenti Əhməd Əl-Şaraanın iyul ayında Azərbaycana səfərini Azərbaycan-Suriya münasibətləri üçün xüsusilə əlamətdar hadisə adlandırıb, əlavə edib ki, bunun ardınca enerji sektorunda əməkdaşlığın əsasını təşkil edən Anlaşma Memorandumu imzalanıb.

"Bakıda keçirilən yüksəksəviyyəli danışıqlardan sonra Türkiyənin Kilis vilayətindən Suriyanın Hələb şəhərinə qaz kəməri bərpa olunub", - deyən ekspert Azərbaycan və Türkiyə ilə yanaşı, Qətərin də Suriyada enerji böhranının həlli istiqamətində səyləri dəstəklədiyini vurğulayıb.

Hulusi Kılıç dağıntıların və işsizliyin hökm sürdüyü müasir Suriyada iqtisadiyyatın acınacaqlı vəziyyətinə diqqət çəkib. "Belə bir vəziyyətdə Azərbaycanın yardımı doğrudan da taleyüklü olur. Azərbaycan qazı sayəsində Suriyada elektrik enerjisi istehsalı ikiqat artacaq ki, bu da ölkənin bərpası üçün güclü təkan olacaq: əhalinin rifahı yaxşılaşacaq, iş yerləri yenidən açılacaq", - deyə Türkiyənin sabiq səfiri qeyd edib.

Onun sözlərinə görə, Azərbaycanın xarici siyasətinin ötən illərdə öz təzahürünü dəfələrlə tapan humanitar prizmasını, o cümlədən dünyanın ehtiyacı olan regionlarına humanitar yardımların göndərilməsi nümunəsini də unutmaq olmaz. "Azərbaycan böhranlı bölgələrdə problemlərin aradan qaldırılmasına həssaslığın və töhfənin əsl nümunəsidir. Bu, həmçinin qısa zamanda Azərbaycan qazının tədarük olunmağa başladığı Suriyada bir daha özünü büruzə verir. Bunu Suriya xalqı üçün tarixi dəstək aktı kimi qiymətləndirmək lazımdır", - deyə ekspert vurğulayıb. O, Suriya xalqına ən fəal dəstək verən üç ölkənin - Azərbaycan, Türkiyə və Qətərin adlarını çəkib.

Hulusi Kılıç 2000-2005-ci illərdə Türkiyənin Hələbdəki baş konsulu vəzifəsində çalışdığını xatırladıb. "Sabiq baş konsul kimi, Azərbaycanın Suriyaya dəstəyini yüksək qiymətləndirirəm və Bakının addımlarını qürur mənbəyi hesab edirəm. Prezident İlham Əliyevə və bütün Azərbaycan xalqına səmimi təşəkkürümü bildirirəm. Bu, xalqlar arasında qarşılıqlı yardımın nümunəsidir", - deyə "İMZA" Sosial İnkişafa Dəstək İctimai Birliyinin nümayəndəsi sözlərinə yekun vurub.

# Müdafiə naziri türkiyəli şəhid ailələri ilə görüşüb

**Avqustun 2-də Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov və müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev "YAŞAT" Fondunun dəvəti ilə ölkəmizdə səfərdə olan türkiyəli şəhid ailələrinin üzvləri ilə görüşüb.**



Müdafiə Nazirliyinin Mətbuat və ictimaiyyətlə əlaqələr idarəsindən AZƏRTAC-a verilən məlumata görə, görüşdə Azərbaycan və Türkiyə şəhidlərinin xatirəsinin hər zaman uca tutulduğunu qeyd edən nazir hər iki ölkə başçısının müvafiq göstərişlərinə əsasən, şəhid ailələrinə xüsusi həssaslıqla yanaşıldığını, onların daim diqqət və qayğı ilə əhatə olunduğunu vurğulayıb.

Görüş zamanı qarşılıqlı ziyarətlərin təşkilinin ölkələrimiz arasında mövcud tarixi dostluğun, əməkdaşlığın daha da inkişaf etdirilməsi və əlaqələrin möhkəmləndirilməsinə xidmət etdiyi qeyd olunub.

Qeyd edək ki, qonaqlar səfər çərçivəsində ölkəmizin qədim və müasir memarlığın ahəngini özündə birləşdirən tarixi və mədəni abidələrlə zəngin məkanlarını ziyarət edir, Azərbaycanın şanlı tarixi və zəngin mədəniyyəti ilə yaxından tanış olurlar.

# *ATƏT yanında daimi nümayəndə:* "Azərbaycan Cənubi Qafqaz regionunda sülh və sabitlik üçün tarixi fürsət yaradıb"

**"ATƏT-ə sədrlik edən Finlandiya tərəfindən Helsinki Yekun Aktının 50-ci ildönümünə həsr olunmuş "Helsinki+50" konfransı bir daha təsdiq edib ki, ATƏT-in prinsipləri qüvvədə qalır və ATƏT regionunda təhlükəsizlik və sabitliyin əsası olmalıdır".**



AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının ATƏT yanında daimi nümayəndəsi Rövşən Sadıqbəylinin "X" sosial şəbəkə hesabındakı paylaşımında qeyd olunub.

O bildirib ki, ATƏT-in münaqişənin həlli üzrə fəaliyyətsizliyi Azərbaycanı öz suverenliyini və ərazi bütövlüyünü bərpa etməyə məcbur edib:

"ATƏT lazımi cavab verə bilməsə də, Azərbaycan ədaləti və qanunu bərpa edib, Cənubi Qafqaz regionunda sülh və sabitlik üçün tarixi fürsət yaradıb".

# ABŞ ilə Avropa İttifaqı arasında söz və media azadlığına yanaşma fərqləri dərinləşməkdədir



*"Amerika Birləşmiş Ştatları və Avropa İttifaqı arasında son illərdə bir çox sahələrdə fikir ayrılıqları müşahidə olunsa da, bu dəfə ziddiyyətin mərkəzində söz və ifadə azadlığı dayanır. ABŞ və Avropa arasında gərginlik yaradan əsas məsələ Avropada sosial şəbəkələrin və onlayn platformaların fəaliyyətinə tətbiq edilən yeni məhdudiyyətlər və tənzimləmələrdir. Vaşinqton bu addımların söz azadlığına ciddi zərbə vurduğunu və demokratik prinsiplərlə uzlaşmadığını bildirir.*

*ABŞ rəsmiləri Avropa İttifaqının dezinformasiyaya və nifrət nitqinə qarşı mübarizə adı altında həyata keçirdiyi bu məhdudiyyətləri "senzuralı söz azadlığı" kimi qiymətləndirirlər. Onların fikrincə, Avropanın texnoloji platformalara məzmun üzərində nəzarəti gücləndirməsi, istifadəçilərin paylaşım imkanlarını məhdudlaşdırması və bəzi hallarda hesabların silinməsi demokratiya üçün təhlükə yaradır və totalitar tendensiyaları xatırladır".*

Bu sözləri AZƏRTAC-a açıqlamasında politoloq Züriyə Qarayeva söyləyib.

O bildirib ki, Avropa İttifaqı öz mövqeyində israrlıdır. Brüssel hesab edir ki, yeni rəqəmsal qaydalar, o cümlədən Rəqəmsal Xidmətlər Aktı ictimai təhlükəsizliyi qorumaq, yalan məlumatların yayılmasının qarşısını almaq və onlayn mühitdə nifrət nitqinə qarşı effektiv mübarizə aparmaq üçün zəruridir. Onlara görə bu tədbirlər azadlığı yox, əksinə, daha sağlam və təhlükəsiz informasiya mühiti formalaşdırmaq məqsədi daşıyır.

"Nəticədə ABŞ və Avropa İttifaqı arasında söz və media azadlığına yanaşma fərqləri dərinləşməkdədir. ABŞ daha liberal və müdaxiləsiz informasiya axınına üstünlük verərkən, Avropa daha çox tənzimlənmiş və məsuliyyətli media məkanını müdafiə edir. Bu ideoloji qarşıdurma həm də gələcəkdə Qərbin informasiya siyasətində daha genişmiqyaslı dəyişikliklərin xəbərçisi ola bilər", - deyə politoloq vurğulayıb.

# İlham Əliyevin qətiyyətli enerji siyasəti sülh və əməkdaşlıq rəmzinə çevrilir

## "Bu gün türk dövlətləri enerji diplomatiyasının daha bir nümunəsini həyata keçirirlər"

**"Bu gün türk dövlətləri enerji diplomatiyasının daha bir nümunəsini həyata keçirirlər. Azərbaycan qazı artıq Türkiyə üzərindən Hələbə çatdırılacaq. Enerji və Təbii Sərvətlər Nazirliyinə tabe olan BOTAŞ tərəfindən Kahramanmaraşın Türkoğlu rayonundan başlayaraq Suriyaya qədər uzanan 93 kilometrlik boru kəmərinin inşası tamamlanıb. Türkiyə Azərbaycan qazını bu xətt vasitəsilə Kilis üzərindən birbaşa qonşusu Suriya ilə bölüşəcək".**



AZƏRTAC xəbər verir ki, bu fikirləri Türkiyənin hakim Ədalət və İnkişaf Partiyası sədrinin müavini, Türk Dövlətləri ilə Əlaqələr Baş İdarəsinin rəhbəri Kürşad Zorlu mövzu ilə bağlı açıqlamasında söyləyib.

O deyib: "Bu addım eyni zamanda Suriyada həyatın normallaşmasını, elektrik enerjisi istehsalının bərpa olunmasını, təhlükəsiz və könüllü qayıdış prosesini sürətləndirir, infrastruktur əsaslı sabitliyi dəstəkləyir. Enerji üzərindən qurulan bu strateji xətt türk dünyasının regional nizam qurma qabiliyyətini möhkəmləndirməklə yanaşı, inkişaf və sabitlik üçün zəminin dərinləşməsinə də töhfə verir. Türkiyə Prezidentinin liderliyi ilə formalaşan bu baxış ikitərəfli və çoxtərəfli əməkdaşlıqlar vasitəsilə etimad, rifah və sabitlik mühitinin formalaşmasına şərait yaradır. "Dildə, fikirdə, işdə birlik" şüarı ilə biz bütün sahələrdə əməkdaşlığımızı daha da gücləndirəcəyik".

## Türkiyə və Şimali Kipr mediası Azərbaycan qazının Suriyaya nəqlinə başlanması mərasimini geniş işıqlandırıb




**Türkiyə və Şimali Kipr Türk Cümhuriyyətinin (ŞKTC) aparıcı xəbər agentlikləri, telekanalları, xəbər portalları və qəzetləri Azərbaycan qazının Türkiyənin cənubundakı Kilis vilayəti vasitəsilə Suriyaya nəqlinə başlanması mərasimini geniş işıqlandırıb.**

AZƏRTAC xəbər verir ki, qardaş ölkələrin əksər media orqanı Azərbaycan və Qətər nümayəndə heyətlərinin iştirakı ilə keçirilən mərasimdən canlı yayım təşkil edib.

Materiallarda Türkiyənin enerji və təbii sərvətlər naziri Alparslan Bayraktarın Azərbaycana və Qətərə minnətdarlıq sözlərinə diqqət yetirilib.

Azərbaycan qazının Suriyaya nəqli bu ölkədə normal həyatın bərpası, o cümlədən qaçqınların öz vətənlərinə könüllü qayıtması kontekstində mühüm amil kimi vurğulanır.

A.Bayraktarın Kilis vilayətindəki Yavuzlu qazpaylayıcı stansiyası vasitəsilə Suriyaya sutkada 6 milyon kubmetrədək Azərbaycan qazının veriləcəyi sözləri vurğulanıb. Eyni zamanda Azərbaycan qazı Hələbə, daha sonra isə Suriyanın Homs şəhərinə tədarük ediləcək və bu, Suriyada elektrik stansiyalarının fəaliyyətinin bərpasına imkan verəcək.

Media orqanları türkiyəli nazirin aşağıdakı sözlərini sitat gətirir: "Birinci mərhələdə Suriyaya 2 milyard kubmetrə qədər qaz tədarük ediləcək ki, bu da 1,2 min MVt elektrik enerjisi istehsal etməyə və 5 milyon abonenti elektrik enerjisi ilə təmin etməyə imkan verəcək. Bütün bunlar Suriyada vəziyyətin normallaşmasına mühüm töhfə verəcək".

Mətbuat orqanları Türkiyə ilə Azərbaycan arasında enerji sektorunda uğurlu əməkdaşlığa da diqqət çəkiblər. Bunun bariz nümunəsi olaraq, İğdırdan Naxçıvana çəkilən qaz kəməri göstərilir.

Medianın materiallarında Azərbaycan qazının Suriyaya tədarükünün başlanması "ölkələr arasında əsl dostluq və qardaşlığın göstəricisi, bütövlükdə regionun inkişafına töhfə" adlandırılıb.

## *"Star" qəzeti:* Türkiyə və Azərbaycanın enerji əməkdaşlığı Suriya üçün həyati əhəmiyyət daşıyır

**Avqustun 2-dən Azərbaycan qazının Türkiyənin Kilis vilayəti vasitəsilə nəqlinə başlanılan Suriyanın Hələb vilayətinin sakinləri Ankara və Bakının Suriyanın bərpasına verdiyi töhfəni alqışlayır.**




AZƏRTAC xəbər verir ki, bu barədə Türkiyənin "Star" qəzetinin şənbə günü Hələbdə hazırladığı reportajda deyilir.

Nəşr qeyd edir ki, Hələb sakinlərinin sözlərinə görə, Türkiyə ilə Azərbaycan arasında enerji əməkdaşlığı Suriya üçün həyati əhəmiyyət kəsb edir.

Qəzet Suriyaya qaz nəqlinin müsbət iqtisadi və sosial nəticələrinə diqqət çəkən Hələb sakini Mahmud Hammaşdan sitat gətirir. "Azərbaycan qazı sayəsində biz elektrik enerjisi alacağıq. Biz nəqliyyat və çörəyin qiymətlərinin aşağı düşməsinə ümid edirik", - deyə suriyalı bildirib.

Digər Hələb sakini Məhəmməd əl-Abdullah Suriyanın bərpasına töhfə verən bütün ölkələrə təşəkkür edib: "Bizim elektrik enerjisinə ehtiyacımız var. Elektrik enerjisi istehsalı üçün qazın tədarükü Suriya üçün çox yaxşı xəbərdir".

Reportajda qeyd olunur ki, Azərbaycan qazının Suriyaya tədarükünün başlanması iqtisadiyyatın bir çox sektoru, o cümlədən istehsal üçün təkan olacaq və bu ölkədə gündəlik həyatı yaxşılaşdıracaq.

## "Azərbaycanın Suriyaya nəql edəcəyi qazın potensial həcmi 6 milyon kubmetrdir"

**"Azərbaycan qazını Suriyaya nəql edən boruların günlük potensialı 6 milyon kubmetrdir. Sadəcə, ilkin mərhələdə 3,4 milyon kubmetr qazın nəqli nəzərdə tutulur".**



AZƏRTAC xəbər verir ki, bunu Suriyanın energetika naziri Məhəmməd Əl-Bəşir Azərbaycan qazının Türkiyə ərazisindən keçməklə Suriyaya nəqlinə dair keçirilən mərasimdən sonra jurnalistlərə açıqlamasında deyib.

"Azərbaycanlı qardaşlarımıza bu dəstəyə görə təşəkkür edirəm. Təbii ki, bu razılaşma hər iki ölkə başçısının sonuncu görüşündən sonra baş tutub. Bu, birbaşa Suriya xalqının rifahına və elektrik enerjisi ilə davamlı təminatına xidmət göstərəcək. Bu layihə sonuncu deyil, ilk layihədir. Bundan sonra da bizim birgə layihələrimiz olacaq. Azərbaycanın iqtisadiyyat naziri, qardaşım Mikayıl Cabbarov ilə də bir az öncə görüləcək işlərlə bağlı müzakirələr apardıq. Texniki qrupların qarşılıqlı şəkildə səfərləri təşkil olunacaq. Azərbaycanın Suriyada investisiya ilə bağlı proqram və layihələrini müzakirə etdik", - deyə Suriyanın energetika naziri diqqətə çatdırıb.

## "Azərbaycan qazının Suriyaya tədarükü Bakının Yaxın Şərqdə artan rolunun təzahürüdür"

**"Azərbaycanın uğurlu xarici siyasəti təkcə siyasi təşəbbüslərdə deyil, həm də iqtisadi addımlarda özünü göstərir. Türkiyənin Kilis vilayəti vasitəsilə Azərbaycan qazının Suriyaya nəqlinə başlanması Bakının Yaxın Şərq regionunda artan rolunun təzahürüdür".**



Bu fikirləri AZƏRTAC-ın müxbirinə Türkiyə-Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Fondunun (TADİV) sədri, professor Aygün Attar ifadə edib.

TADİV rəhbəri xatırladıb ki, Azərbaycan-Suriya dialoqunun fəal mərhələsi Antalyada keçirilən IV Diplomatiya Forumu çərçivəsində aprelin 11-də Azərbaycan Prezidenti İlham Əliyev ilə Suriyanın keçid dövrü Prezidenti Əhməd əl-Şaraa arasında keçirilən görüşdə başlayıb: "Azərbaycan dövlətinin başçısı Antalyada bəyan edib ki, respublikamız qardaş Türkiyə ilə birlikdə Suriyanın dirçəlməsinə və inkişafına töhfə verməyə hazırdır".

A.Attar həmçinin bu ilin iyulunda Azərbaycan paytaxtında keçirilən yüksəksəviyyəli müzakirələri Bakı ilə Dəməşq arasında dialoq üçün xüsusilə əlamətdar adlandırıb. O qeyd edib: "Azərbaycan və Suriya liderləri arasında aparılan danışıqlar Dəməşqin dəstəklənməsi üzrə atılacaq fəal addımların yeni mərhələsinin başlanğıcı oldu".

TADİV rəhbəri vurğulayıb ki, Azərbaycan qazının tədarükü sayəsində Suriyada elektrik enerjisi istehsalı ikiqat artacaq və bu, milyonlarla suriyalının həyat şəraitini yaxşılaşdıracaq.

Azərbaycan ilə İraq arasında dialoqu da xatırladan professor deyib: "Sıx iqtisadi əməkdaşlıq dövlətlərin uğurlu əlaqələr qurmasının əsasını təşkil edir. Bu səbəbdən də Azərbaycan qazının Suriyaya tədarükü, sözsüz ki, Bakının Yaxın Şərqdə uğurlu və fəal siyasəti istiqamətində atılan növbəti addımdır".

## "Azərbaycan qazının Suriyaya nəql edilməsi yeni bir diplomatiyaya yol açacaq addımdır"

**"Bu gündən etibarən Azərbaycan qazının Türkiyə üzərindən Suriyaya nəqlinə başlanılması təkcə texniki xarakterli bir enerji layihəsi kimi qiymətləndirilməməlidir. Bu əməkdaşlıq eyni zamanda postmünaqişə dövründə Suriyanın tədricən inteqrasiyası, Türkiyənin konstruktiv vasitəçilik qabiliyyəti, Azərbaycanın Yaxın Şərqlə əlaqələrinin genişlənməsi kimi müxtəlif elementləri bir araya gətirən çoxməqsədli diplomatik və iqtisadi əməkdaşlıq modelidir. Bu təşəbbüs eyni zamanda regionda əhatəli bağlılıq baxımından böyük əhəmiyyət daşıyır".**



Bu fikirləri AZƏRTAC-a açıqlamasında Türkiyənin SETA-Siyasi, İqtisadi və İctimai Araşdırmalar Vəqfinin xarici siyasət üzrə eksperti Tunç Demirtaş bildirib.

Azərbaycan qazının Türkiyə üzərindən Suriyaya çatdırılmasının həm enerji təchizatı təhlükəsizliyini möhkəmləndirəcəyini, həm də Suriyada normallaşma proseslərinin infrastruktur əsaslarını formalaşdırmaq baxımından əhəmiyyətini vurğulayan şərhçi deyib: "Türkiyə üzərindən Suriyaya qaz və elektrik enerjisinin təmin edilməsi, eləcə də Azərbaycanın Suriyanın münaqişədən sonrakı dövrdə inkişafına, yenidən qurulması prosesinə töhfə verməyə hazırlığını ifadə etməsi yalnız humanitar deyil, həm də siyasi və diplomatik yenidənqurmanın yolunu aça biləcək bir addım kimi qiymətləndirilməlidir.

Bu yanaşma münaqişədən sonrakı keçid dövründə sabitliyin təmin olunmasına xidmət edən infrastruktur körpülərinin qurulmasına töhfə verir. Bu, Türkiyə və Azərbaycanın enerji diplomatiyasının son dövrlərdə həm iqtisadi, həm də geosiyasi nəticələr doğurduğunun aydın və konkret nümunəsi olmaqla yanaşı, həm də dəstək göstərən ölkələrin Suriyanın yenidən qurulmasında əsas oyunçulardan biri kimi mövqeyini daha da möhkəmləndirir. Bu proses nəticəsində Suriya yenidən tranzit ölkə statusunu bərpa edə bilər. Belə ki, Azərbaycanın təchizatçı və Türkiyənin keçid ölkə rolunda çıxış etməsi Suriya üçün yenidən tranzit mərkəzinə çevrilmə perspektivini mümkün edir. Suriyanın bərpası isə regionun siyasi dirçəlişinə dəstək verməklə yanaşı, bu ölkəni gələcəkdə istehlakçıdan daha artıq rol oynayan strateji aktora çevirə bilər".

Ekspert bildirib ki, böhranların intensiv yaşandığı bir dövrdə bu cür regional enerji inteqrasiyası əməkdaşlığa əsaslanan yeni bir Yaxın Şərq diplomatiyasının təməlini qoya bilər: "Nəticə etibarilə bu əməkdaşlıq təkcə enerji sahəsində deyil, təhlükəsizlik, miqrasiya idarəçiliyi, məcburi köçkünlərin geri dönüşünün sürətlənməsi, ticarət və infrastruktur yatırımları kimi bir sıra sahələrdə də müsbət gündəmlər formalaşdırmaq potensialına malikdir".

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## "Rusiyanın şovinist dairələri ölkələrinin Cənubi Qafqazdakı maraqlarına zərbə vurur"

**"Rusiya mətbuatında Azərbaycana qarşı kampaniyanın davam etməsi, eləcə də Rusiya Prezidentinin xüsusi nümayəndəsi Mixail Şvıdkoyun Xankəndidə Ayvazovskinin büstünün sökülməsi məsələsinə dair açıqlamasının ardınca bu hücumların daha da radikallaşması, habelə dövlət xəbər agentliyi olan TASS tərəfindən Azərbaycanın Xankəndi şəhərinin "Stepanakert" adlandırılması Azərbaycana qarşı qonşuluq münasibətinə sığmayan addımdır".**



Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Bəhruz Məhərrəmov deyib. O bildirib ki, Mixail Şvıdkoy və Rusiyanın şovnist və artıq faşist xislətinə bürünmüş məlum media orqanları Azərbaycan tərəfini "abidələrlə müharibədə", rus mədəniyyətinin "ləğv edilməsi" tədbirlərində günahlandırırlar: "Lakin Kreml əvvəldən başa düşməli idi ki, Rusiya sülhməramlıları tərəfindən Azərbaycan tərəfinin icazəsi olmadan torpaqlarımızda İvan Ayvazovskinin (Hovanes Ayvasyan) büstünün quraşdırılması beynəlxalq hüququn normalarında əks edilən prinsiplərə zidd olmaqla qanunsuz və ölkəmizin suverenliyinə münasibətdə hörmətsizlik idi. Bu mənada yaxşı olardı ki, ən azı sülhməramlılar Azərbaycanı tərk edərkən buraxılmış bu kobud səhvin nəticələrini aradan qaldırardı. İşğaldan azad edilmiş ərazilərimizdə özünün də gözü ilə gördüyü Natəvan, Üzeyir bəy Hacıbəyli, Bülbül və digər mədəniyyət xadimlərimizin abidələrinə qarşı vandallıqlara, habelə Azərbaycan ərazisində törədilmiş dağıntılarla bağlı susması mədəniyyət siyasətinə məsul şəxs kimi cənab Şvıdkoyun Ayvazovskinin abidəsinin sökülməsinə münasibətdə həssaslığı sadəcə sözün əsl mənasında saxtakarlıqdır. Üstəlik, nə qədər gülünc olsa da, cənab Şvıdkoy məsələni Azərbaycanda Rusiya mədəniyyətinin "ləğv edilməsi" iddiaları ilə şərh etməyə çalışır".

Deputatın sözlərinə görə, Azərbaycanda rus teatrı, rus dilində məktəblər, nəşrlər olduğu halda, Rusiyada Azərbaycan dilində teatr, məktəb, qəzet və jurnallar mövcud olmadığı disparitet şəraitində bu cür iddialar deməyə əsas verir ki, Bakı şimal qonşumuzun bu reallığı görməməsi fonunda həmin disparitetə düzəlişlər etməlidir. Rusiya tərəfinin bu kimi davranışları sanki rus mədəniyyəti, incəsənəti ədəbiyyatı olmadan Azərbaycanda, bütövlükdə MDB məkanında mədəniyyət mühiti və mənzərəsinin yoxsulluğu ab-havası formalaşdırmağa çalışır. "Sirr deyil ki, istər çar Rusiyası, istərsə də Sovetlər Birliyi dönəmində şimal qonşumuzun elmi-mədəni mühitinin Azərbaycana və digər ittifaq respublikalarına da bu və ya digər formada təsiri olub. Ötən dövr ərzində ölkəmiz Rusiya ilə mədəni-humanitar sahədə əməkdaşlığa böyük önəm verib. Lakin bütün bunlar heç kimə, o cümlədən heç bir Rusiya rəsmisinə bu ölkənin tədbirləri olmadan Azərbaycan mədəni mühitinin mənzərəsinin yoxsul qalacağı barədə yanlış təsəvvür yaratması üçün əsas ola bilməz. Əksinə, Azərbaycanda bir çox sahələr, o cümlədən elmi, mədəni, incəsənət və ədəbi istiqamətlərin tarixi Rusiya dövlətinin özünün tarixindən daha qədimdir. İndiki məqamda Şvıdkoy və digər Rusiya rəsmiləri bu kimi şovinist, qızışdırıcı və faydasız bəyanatlardan çəkinərək ölkələrimiz arasında müşahidə olunan və hər kəsdən öncə Moskvanın özünün Qafqazda maraqlarına zərbə olan arzuolunmaz situasiyanın dinc yolla aradan qaldırılmasına diqqət yetirməsi yaxşı olar", - deyə o əlavə edib.

B.Məhərrəmov söyləyib ki, Azərbaycan ümumbəşəri dəyərlərə sadiq qalaraq bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamağı və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərməyi özünün konstitusion niyyətlərindən biri kimi müəyyən edib: "Biz başqa dövlətlərlə, o cümlədən Rusiya ilə münasibətlərimizi hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarında nəzərdə tutulan prinsiplər əsasında qurmağa üstünlük veririk. Prezident İlham Əliyevin böyük uğurla realizə etdiyi və Azərbaycanın hərbi-siyasi zəfərlərini birmənalı şəkildə beynəlxalq müstəvidə möhkəmlədən çoxvektorlu xarici siyasət kursumuz beynəlxalq münaqişələrin həlli üsulu kimi müharibəni rədd edir və biz hətta ərazilərimizi 30 il işğalda saxlamış Ermənistanla belə sülhün və əməkdaşlıq mühitinin təşəbbüskarı kimi çıxış edirik. O cümlədən də 200 ildən artıq tarixi, hüquqi, siyasi, mədəni və humanitar əlaqələrə malik olduğumuz Rusiya ilə münasibətlərin hər hansı formada korlanmasında maraqlı deyilik. Lakin hesab edirik ki, Rusiya özü də reallıqları görməli, xüsusən Azərbaycanın hərbi-siyasi qələbələrindən sonra Cənubi Qafqazda maraqlarının təmininin yalnız ölkəmizlə bərabərhüquqlu əməkdaşlıqdan keçdiyini başa düşməli və Bakı ilə Moskva arasında bu günə qədər imzalanan sənədlərə və ən əsası, öz imzasına hörmətlə yanaşaraq davranışlarında beynəlxalq hüququn aliliyini rəhbər tutmalıdır".

Hazırda Azərbaycan və Rusiya arasında münasibətlərin gərgin dövr yaşadığını qeyd edən deputat bu gərginliyin Bakıdan qaynaqlanmadığını və Azərbaycanın ən qısa müddətdə Rusiya ilə münasibətlərin yaxşılaşdırılması və gərginliyə səbəb olan amillərin aradan qaldırılmasını arzu etdiyini bildirib: "Rusiyanın Azərbaycan Hava yollarına məxsus təyyarəni vurduqdan sonra bu cinayəti ört-basdır etməsi, daha sonra bu ölkədə yaşayan Azərbaycan diasporunun fəallarına qarşı terror siyasəti iki ölkə arasında münasibətlərin normallaşması üçün həllini gözləyən məsələlərdir. Lakin Rusiyada ayrı-ayrı dairələrin məsələlərin həllinə, Rusiya-Azərbaycan münasibətlərinin nizamlanmasına, beləliklə, milli maraqlara xidmət edən bu kimi problemlərə diqqət yönəltməkdənsə, Bakının ünvanına təhdid dolu bəyanatlar səsləndirməsi absurd görünür. Hər kəs əmin ola bilər ki, bu tip şovinist dairələr Azərbaycana deyil, əslində, Rusiyanın Cənubi Qafqazdakı maraqlarına bərpaolunmaz zərər vurmaqdadır. Lakin gördüyünüz kimi, Azərbaycan dövləti, cəmiyyəti və mediamız bu kimi bəyanatlar qarşısında kifayət qədər təmkinli və praqmatik davranmaqda, dövlət maraqlarının bu gün Rusiyada müşahidə olunduğu kimi populist bəyanatlarla yox, ötən dövrün effektiv nümunələrinə əsaslanaraq təmininə inam ifadə edir".

Siyasətçi deyib ki, bütün bunların fonunda dövlət mediası və informasiya agentliyində işğala, separatizmə dəstək verən mövqe bölgədə heç bir formada Moskvanın maraqlarının müdafiəsi kimi təqdim oluna bilməz, əksinə yalnız və yalnız Rusiyanın beynəlxalq hüquqa hörmət etməyən qlobal işğalçı imicini möhkəmləndirir: "Bu mənada istər Rusiya rəsmiləri, istərsə də özünün müstəqil təhlil qabiliyyətini itirmiş tezislərlə hərəkət edən, çirkli kampaniyaların alətinə çevrilmiş muzdlu rus mediası Azərbaycana uğursuz hücum cəhdlərinin fayda və zərərlərini tərəziyə qoyaraq itkilərin faydalardan çox olacağını anlamalıdır".

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## Tarixi toponimlərə qayıtmaq Rusiyanın xeyrinə olmazdı

**Xankəndi şəhərində separatçılar və Rusiya sülhməramlıları tərəfindən erməniəsilli rəssam İvan Ayvazovskinin Azərbaycanın razılığı olmadan qoyulan büstü demontaj edilib.**



Hər hansı KİV üçün bu adi, bəlkə də heç kimi maraqlandırmayan xəbərdir. Amma məsələ burasındadır ki, büstün götürülməsinə Ermənistan tərəfindən hər hansı bir reaksiya olmadığı halda, Rusiya Xarici İşlər Nazirliyinin sözcüsü Mariya Zaxarova öz "Telegram" kanalında bu sadə xəbər barədə "duyğusal" paylaşım edib. İvan Ayvazovskinin rəsm əsərlərini paylaşan diplomat "Kimlərsə onun heykəllərini sökür, mən isə onun əsərlərini xatırladaraq savadsızlığı ləğv edirəm", - deyə bildirib.

Ehtiyac olmasa da xatırladaq ki, Xankəndi XVIII əsrin sonunda yaranmış yaşayış məntəqəsinin tarixi adıdır. Azərbaycan dilindən tərcümədə bu, xanın kəndi deməkdir. Azərbaycanın ərazisi kimi tanınan və qəbul edilən bu şəhərdə hansı abidənin olmasının məqsədəuyğun hesab edilməsinə də yalnız Azərbaycan hökuməti qərar verir. "Savadsızlığı ləğv edirəm" yazan Zaxarova bununla da əslində Azərbaycanın suveren ərazisində gördüyü işlərə müdaxilə etmiş olub. Azərbaycan xalqı və dövləti Ayvazovskinin rəssam kimi dəyərini inkar etmir, lakin onun büstünün Azərbaycan ərazisində qanunsuz qoyulmasına qarşı çıxmaq hüququnu da heç kimlə bölüşmür. Bunu birmənalı olaraq, Zaxarova və onun kimi düşünənlər qulaqlarında sırğa etsinlər ki, ölkəmizin ərazisində kimlərin heykəllərinin, abidəsinin qoyulması qərarını Azərbaycan özü verir. Yox, əgər gerçəkdən Zaxarova XXI əsrdə maarifçilik ideyasını yaymağa, savadsızlıqla mübarizə aparmaq həvəsinə düşübsə, ilk növbədə ermənilərin işğal dövründə Azərbaycanın tarixi-mədəni abidələrini necə sistematik şəkildə məhv etdiyini öyrənsin.

Bu məqamda bir məsələyə də toxunmaq istəyirik. Məsələ heç də "büst" təəssübkeşliyində deyil. Problem Mariya Zaxarova kimilərin təfəkküründə, düşüncəsindədir. Təəssüflər olsun ki, Rusiya düşüncəsini hələ format edə bilməyib. Qərəz, hikkə, mənəm-mənəmlik zaxarova, solovyov kimi "propoqandist"lərin gözlərini o qədər tutub ki, reallıqları görüb dərk edə bilmirlər. Elə Rusiyanı dinc qoymayan da budur.

"Savadsızlığı ləğv edən" Mariya Zaxarovanın paylaşımı sanki "heykəl sevgisi" ilə alışıb yananlar üçün bir işarə oldu. Elə bil bu paylaşımı ilə Zaxarova Azərbaycana qarşı növbəti "hücum"a keçmək əmri verdi. İndiyə kimi öz xəbərlərində - Xankəndi şəhərinin tarixi adından istifadə edən TASS Dövlət İnformasiya Agentliyi həmin əmri gözləyirmiş kimi, kursunu dəyişərək tarixin zibilxanasına atılmış "Stepanakert" toponimini diriltmək istədi. Şübhəsiz ki, bununla Rusiya bizimlə Ayvazovski "Stepanakert", "Naqornıy Karabax" davası aparmır. O, sadəcə inadkarlıq edir, özünü göstərmək istəyir. Elə bunun nəticəsidir ki, ötən il dekabrın 25-də "Azərbaycan Hava Yolları" aviaşirkətinin Bakı-Qroznı reysini yerinə yetirən təyyarəsinin Çeçenistan paytaxtı ətrafında vurulması ilə Azərbaycan və Rusiya arasında gərginləşən münasibət şimal qonşumuzun inadkarlığı üzündən düzəlmək bilmir. Əmrin Rusiya Silahlı Qüvvələrinin 4-cü Qvardiya ordusunun 51-ci Hava Hücumundan Müdafiə Diviziyasının komandiri general-mayor Aleksandr Tolopilo tərəfindən verilməsi, kapitan Paladıçukun rəhbərlik etdiyi "Pantsir-S" sistemi tərəfindən vurulması barədə kifayət qədər tutarlı fakt olsa da, qarşı tərəf hələ də yersiz "soyuqqanlı" davranmaqdadır. Əslində bu davranış soyuqqanlılıqdan çox tərslik kimi qəbul edilir. Prezident İlham Əliyev iyulun 19-da Şuşada keçirilən Qlobal Media Forumunda bu barədə açıq və konkret danışmışdır: "Bizim AZAL təyyarəmiz Qazaxıstanın Aktau şəhəri yaxınlığında raketlə vurulub. Hələ də buna görə məsuliyyəti heç kim üzərinə götürməyib. Bu, beynəlxalq hüququn kobud şəkildə pozulmasıdır".

Kremlin sözçüsü Dmitri Peskov isə iyulun 21-də verdiyi açıqlamada demişdir: "Bəzən iki ölkənin münasibətlərində çətin dövrlər olur. Hazırda belə bir dövr yaşanır. Amma biz ümid edirik ki, bu dövr keçəcək". Peskov həmçinin bildirmişdir ki, "ikitərəfli əməkdaşlıq qarşılıqlı fayda gətirir və bu münasibətlər möhkəm təmələ əsaslanır".

Elə isə nə baş verir? Rusiya iki ölkə arasında təyyarə qəzası ilə gərginləşən münasibətləri normallaşdırmaq əvəzinə, odun üstünə niyə benzin tökür? Heç kimə sirr deyil ki, rəsmi Moskva Rusiya ərazisində yaşayan miqrantlardan həmişə siyasi təzyiq vasitəsi kimi istifadə edib. Biz belə "numunə"lərə çox şahidlik etmişik. Rusiyanın Saakaşvili hakimiyyətinə təzyiq etmək üçün 3 günün içində ölkə ərazisində yaşayan Gürcüstan vətəndaşlarını ildırım sürəti ilə deportasiya edib vətənlərinə göndərməsi çox da uzaq olan tarixin söhbəti deyil. Bu halda hesab etmək olar ki, münasibətlərin gərginləşməsində təyyarə faciəsi məsələnin görünən tərəfidir.

Uzun müddətdir ki, Rusiyanın informasiya kanallarında Kremlə yaxınlığı ilə seçilən Marqarita Simonyan, Vladimir Solovyov və İqor Strelkov kimi "propoqondist"lər Azərbaycan əleyhinə çirkin kampaniya aparırlar. Hətta Azərbaycanın bombalanmasından tutmuş azərbaycanlıların Rusiyadan deportasiya edilməsinə qədər ciddi çağırışlar edirlər. Sual oluna bilər ki, "strateji" tərəfdaşımızı qəzəbləndirən səbəb nədir? Bunun yalnız bir cavabı var: Azərbaycanın müstəqil siyasət yeritməsi. Xüsusən Rusiya-Ukrayna münasibətlərində ölkəmizin beynəlxalq hüquq normalarına uyğun sərgilədiyi dəyişməz və ciddi mövqe. Sirr deyil ki, Rusiya-Ukrayna müharibəsi başlayandan Azərbaycan Ukraynaya humanitar yardım edir. Bundan əlavə, məlumdur ki, III Şuşa Qlobal Media Forumundakı çıxışında Ukrayna məsələsinə xüsusi yer ayıran dövlətimizin başçısı bu xalqa işğalla barışmamağı, öz azadlığı, haqqı uğrunda mübarizə aparmağı tövsiyə etmişdir: "Azərbaycan 30 ilə yaxın müddətdə erməni işğalına məruz qalsa da, heç bir böyük dövlət, beynəlxalq təşkilat ona praktiki olaraq yardım etmədi. Lakin bütün bunlar Azərbaycanı ruhdan salmadı, əksinə, xalq öz mübarizəsini davam etdirdi. Nəticədə erməni faşizmini darmadağın edərək ərazi bütövlüyünü təmin etdi". Dövlətimizin başçısı beynəlxalq hüquqa istinad edərək növbəti dəfə Ukraynanın ərazi bütövlüyünü dəstəklədiyimizi də dedi: "Biz Ukraynanın ərazi bütövlüyünü tanıyırıq və bu, Azərbaycanın beynəlxalq hüquqa olan hörmətindən irəli gəlir".

Bu açıqlamalardan sonra Rusiya təbliğatçılarının anti-Azərbaycan isterikaları daha da gücləndi. Rusiya Dövlət Dumasının MDB işləri üzrə komitəsi sədrinin birinci müavini, hər zaman anti-Azərbaycan mövqeyi və ermənipərəstliyi ilə seçilən Konstantin Zatulin bildirib ki, Azərbaycanın Ukraynaya qaz ixrac etməsi, rəsmi Bakının əvvəlki siyasətinin davamıdır və bu, bir daha göstərir ki, Azərbaycan Rusiya ilə münasibətləri saxlasa da, indi bu münasibətlər onun üçün ikinci plana keçib. O, həmçinin iddia edib ki, bununla Azərbaycan özünü "Rusiyaya qarşı ən azı müttəfiq kimi aparmır və Rusiyanın düşmənləri ilə münasibətlərdə özünü heç bir şəkildə məhdudlaşdırmayan ölkə kimi" görür. Ölkəsinin Azərbaycana qarşı nəinki müttəfiq, əksinə, düşmən münasibətini, hər addımda Azərbaycanı və azərbaycanlıları aşağılamaq cəhdlərini, açıq təxribatlarını görməzdən gələn Zatulinin dediklərindən isə belə çıxır ki, Azərbaycan hansı ölkəyə nə ixrac etməli olduğunu Rusiyadan soruşmalıymış. Əgər belədirsə, bəs, o zaman müharibə aparan dövlətin özü - Rusiya Ukraynaya və bu ölkəyə siyasi dəstək verən Qərb dövlətlərinə niyə qaz satır?

Rusiya hökumətinin başqa ölkələrə qarşı bu məntiqsiz davranışı heç də yeni mərəz deyil. Beynəlxalq hüquqa heç vaxt məhəl qoymayan Rusiya dövlətdaxili nizam-intizam məsələsində də "skinxed"lərdən fərqli davranış nümayiş etdirmir. Məlumdur ki, son zamanlar rəsmi Moskva Rusiyada yaşayan Azərbaycan diaspor rəhbərlərinə və nümayəndələrinə münasibətdə "reket siyasəti" həyata keçirir. Bu ilin iyun ayında Rusiya polisi Yekaterinburqda keçirdiyi əməliyyat zamanı iki soydaşımızın öldürülməsi, uzun illər Rusiya hökuməti ilə əməkdaşlıq edən və xeyriyyə işləri ilə məşğul olan, o cümlədən "xüsusi hərbi əməliyyat" zonasına maddi yardım göstərən Arxangelskdəki Azərbaycan diasporunun sədri Tərlan Qasımovun 2024-cü ilin yazında "milli təhlükəsizliyə təhdid" yaratdığına görə Rusiya vətəndaşlığından məhrum edilməsi, daha bir iş adamı - Moskva vilayəti üzrə Azərbaycan diasporunun rəhbəri Elşən İbrahimovun "milli təhlükəsizliyə təhdid yaradan hərəkətlərə yol verdiyinə görə" Rusiya vətəndaşlığından məhrum edilərək ölkəmizə deport edilməsi, Yekaterinburqdakı Azərbaycan diasporunun rəhbəri Şahin Şıxlinskinin axtarışa verilməsi, oğlununsa həbs olunması və s. faktlar Rusiya hökumətinin azərbaycanlılara qarşı qərəzli münasibətini göstərir.

İşin maraqlı tərəfi budur ki, "milli təhlükəsizliyə təhdid yaradan hərəkətlərə yol verdiyinə" görə vətəndaşlığından məhrum olan azərbaycanəsilli Rusiya vətəndaşları vətənpərvər, eyni zamanda qanuna hörmət edən insanlardır. Onlar Bakıda həbs olunan "Sputnik Azərbaycan"ın əməkdaşlarından fərqli olaraq casusluq etməyiblər, yaşadıqları, vətəndaşı olduqları ölkənin inkişafı üçün vicdanla çalışıblar. Ciddi vergi ödəyiciləri kimi Rusiyanın dövlət büdcəsinə xeyir veriblər.

Bu arada Rusiya Prezidentinin sözçüsü Peskov demişdir: "Azərbaycanda yaşayan rusiyalıların hüquqlarına hörmətlə yanaşılması Moskva üçün vacibdir, eyni şəkildə Rusiyada yaşayan azərbaycanlılar da "qanuna tabe olan və hörmət qazanan icmadır". Elə isə qanuna tabe olan və hörmət qazanan icmaya qarşı başlanan səlib yürüşünü niyə dayandırmırsınız?

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

## Avropa İttifaqının avtoritar meyillərə yuvarlanması qlobal azadlıqlar üçün nümunə deyil



**"Avropa İttifaqının (Aİ) söz azadlığı ilə bağlı atdığı son addımlar təkcə qitə daxilində deyil, beynəlxalq müstəvidə də ciddi narahatlıq doğurur. Aİ-də demokratiya adı ilə senzura mexanizmləri qurmaq tendensiyası güclənməkdədir. Xüsusilə "Rəqəmsal Xidmətlər Aktı" çərçivəsində sosial şəbəkələrə tətbiq edilən nəzarət tənqid hədəfinə çevrilib. ABŞ rəsmiləri açıq şəkildə Aİ-ni söz azadlığına zərbə vurmaqda ittiham edirlər".**

Bu sözləri AZƏRTAC-a açıqlamasında siyasi şərhçi Tural İsmayılov söyləyib.

O bildirib ki, qlobal texnologiya şirkətləri də Avropanın bu kursunun nəticələrindən narahatdır. "Meta", "Google", "X" kimi platformalar üçün Avropa bazarı daralmağa başlayıb. Çünki təkcə dezinformasiyaya qarşı mübarizə adı altında yox, eyni zamanda, siyasi fikirlərə də filtr tətbiq olunur. Brüsselin ritorikasında "sabitlik" və "etik məsuliyyət" kimi anlayışlar önə çəkilsə də, reallıqda vəziyyət fərqlidir.



"Avropa İttifaqı ölkələrində hökumətlərin tənqid olunması getdikcə çətinləşir. Nifrət nitqi ilə fərqli düşüncə arasında sərhəd bulanıqlaşdırılır. Ənənəvi media orqanlarına üstünlük verilərkən, alternativ platformalar susdurulur. Bu isə medianın müstəqilliyinə açıq müdaxilədir. Ən təhlükəli məqam odur ki, qərarverici mexanizmlər texnologiya şirkətlərinə deyil, bürokratik Avropa qurumlarına həvalə olunub. Bu, internetin və sosial medianın dövlət nəzarətinə keçməsi deməkdir. Əslində isə Avropa öz daxilində "yeni senzura nizamı" qurur. Azad cəmiyyətlər üçün bu, ciddi təhlükə siqnalıdır. Qərb uzun illər başqa ölkələri söz və ifadə azadlığına hörmət etməyə çağırsa da, indi öz daxilində əks istiqamətdə hərəkət edir. Avropa İttifaqının getdikcə avtoritar meyillərə yuvarlanması qlobal azadlıqlar üçün nümunə deyil, xəbərdarlıqdır", - deyə T.İsmayılov vurğulayıb.

Siyasi şərhçinin sözlərinə görə, rəqəmsal suverenlik adı ilə platformalara qarşı tətbiq edilən texnoloji sanksiyalar istənilən zaman siyasi rəqiblərə qarşı da istifadə oluna bilər. "Dezinformasiya" anlayışı geniş və qeyri-müəyyəndir, istənilən fikir bu çərçivəyə salına bilər. Bu isə "demokratiya maskasında diktatura" təəssüratı yaradır.

"Avropa məhz bu ikili standartlar səbəbilə beynəlxalq etimadını itirmək üzrədir. ABŞ və digər dövlətlərin narazılığı da bu kontekstdə tam əsaslıdır. Qlobal miqyasda qəbul edilmiş söz azadlığı prinsiplərinin pozulması, Avropa İttifaqının demokratik simasına ciddi kölgə salır.

Demokratiya yalnız idarəetmə forması deyil, həm də dəyərlər sistemidir. Bu dəyərləri qorumaq üçün avropalıların əvvəlcə öz senzura siyasətinə yenidən baxması zəruridir.

Unutmaq olmaz: söz azadlığı məhdudlaşdırıldığı anda demokratiya artıq nominal anlayışa çevrilir. Bugünkü Avropa isə məhz bu təhlükəli nöqtəyə doğru irəliləyir", - deyə Tural İsmayılov əlavə edib.

# İqtisadiyyat və sosial həyat

## Ballıca sakinlərini aqrar sahəyə dair maarifləndiriblər

**Aqrar Xidmətlər Agentliyinin Aqrar Təlim Mərkəzi tərəfindən Xocalı rayonunun Ballıca kəndi sakinlərinin bilik və bacarıqlarının artırılması, eləcə də innovativ yanaşmaların tətbiq edilməsi məqsədilə təlimlər təşkil olunub.**

İşğaldan azad edilmiş ərazilərdə kənd təsərrüfatı təyinatlı torpaqların kənd və qəsəbə sakinlərinə güzəştli şərtlərlə icarəyə verilməsi qaydalarına uyğun keçirilən təlimlərdə iştirak edən fermerlərə bitkiçilik, əkinçilik, tərəvəzçilik və meyvəçilik sahələri, kənd təsərrüfatı texnikalarından səmərəli istifadə, müasir suvarma sistemləri, səmərəli təsərrüfatların təşkili, fermerlər üçün dövlət dəstək mexanizmləri, Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemi, iqlim dəyişkənliyinin təsərrüfata təsirləri, işğaldan azad olunmuş ərazilərdə davranış qaydaları ilə bağlı ətraflı məlumat verilib.



Təlimlərin sonunda yekun qiymətləndirmə aparılıb. Qiymətləndirmə nəticəsində fərqlənən kənd sakinlərinə sertifikatlar təqdim ediləcək.

## Ağdamda yeni Sosial Xidmət Mərkəzi fəaliyyətə başlayıb

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin yeni Sosial Xidmət Mərkəzi fəaliyyətə başlayıb.**



Ağdam rayonunun Quzanlı qəsəbəsində yerləşən, ay ərzində 50-dək uşağa xidmət göstərəcək mərkəz xüsusi avadanlıq və ləvazimatlarla təchiz edilib. Burada mütəxəssislər tərəfindən əlilliyi olan, həmçinin digər həssas qruplara aid uşaqlara psixoloji, pedaqoji, loqopedik və aktiv terapiya xidmətləri göstərilir. Mərkəzdə uşaqların həm fərdi, həm qrup şəklində sosial-reabilitasiya xidmətlərinə cəlb edilməsi, valideynlərinin isə uşaqları ilə bağlı valideyn bacarıqlarının artırılması istiqamətində təlimlərə cəlbi nəzərdə tutulur.

## Daha 2,1 min şəxs üçün kiçik təsərrüfatlar qurulub

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi tərəfindən özünüməşğulluq proqramı iştirakçılarının aktivlərlə təminatı davam etdirilir.**

Son bir ayda paytaxt və regionlarda 2114 işsiz və işaxtaran şəxsə bu proqram çərçivəsində mal və materiallar formasında aktivlər verilərək onlar üçün kiçik təsərrüfatlar qurulub.

Proqrama cəlb olunan şəxslər üçün ilk mərhələdə təlimlər təşkil edilir, onlara kiçik biznesin təşkili və idarə olunması üzrə bilik və bacarıqlar öyrədilir.

Təlimləri uğurla bitirən proqram iştirakçıları sonda aktivlərlə təmin olunurlar.

## BP və tərəfdaşlarından "yaşıl enerji"yə növbəti dəstək

**BP şirkəti Azərbaycanda bərpaolunan enerji texnologiyaları sahəsində bacarıqların inkişafına yönəlmiş transformativ bir peşə təhsili layihəsinin uğurla başa çatdığını elan edib.**

Bu layihə BP-nin və "Azəri-Çıraq-Günəşli", Bakı-Tbilisi-Ceyhan, "Şahdəniz" və Cənubi Qafqaz Boru Kəməri layihələrindəki tərəfdaşları - SOCAR, TPAO, LUKOİL, SGC, NİCO, MOL, İNPEX, "ExxonMobil", İTOCHU, "ONGC Videsh", "Eni", MVM və "TotalEnergies" şirkətlərinin ölkəmizdə təhsilə və dayanıqlı inkişafa dəstək öhdəliyinin bir hissəsidir. Layihədə məqsəd peşə təhsili alan tələbələrin və bu sahədə ixtisaslaşan müəllimlərin sürətlə inkişaf edən bərpaolunan enerji sektorunda fəal iştirakı üçün onları lazımi bilik və praktiki bacarıqlarla təmin etməkdir.

Layihə iki əsas komponentdən ibarətdir. Birinci komponent bərpaolunan enerji üzrə tədris emalatxanalarının yaradılmasını əhatə edir. Bu məqsədlə biri Tikinti və Quraşdırma İşləri üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi, digəri isə Texnika və Texnologiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi üçün olmaqla, ümumilikdə iki tam təchiz edilmiş müasir bərpaolunan enerji emalatxanası yaradılıb.

Bu innovativ emalatxanalar real bərpaolunan enerji ssenariləri əsasında immersiv, praktiki təlim imkanları təqdim edir. Hər iki emalatxana qabaqcıl günəş və külək enerjisi sistemləri ilə təchiz olunaraq tələbələrə sənaye standartlarına uyğun praktiki bacarıqlar əldə etməyə imkan verir.

İkinci komponent isə iqlim dəyişikliyi və ətraf mühit üzrə əhatəli təlim modulunun hazırlanması və onun peşə təhsili proqramına daxil edilməsidir. Modulda qlobal istiləşmənin elmi əsasları və təsiri, insan fəaliyyətinin iqlim dəyişikliyinə təsiri, bərpaolunan enerji mənbələrinin bu təsirin azaldılmasında rolu, enerji səmərəliliyi və dayanıqlı inkişaf kimi mövzular əhatə olunub.



BP-nin Xəzər regionu üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli layihə barədə belə deyib: "Azərbaycanın peşə təhsili sistemi və bərpaolunan enerji sektoru üçün uzunmüddətli töhfələr verəcək bir layihəni uğurla başa çatdırmaqdan çox məmnunuq. İnanırıq ki, bu layihə tələbələrə bərpaolunan enerji texnologiyaları sahəsində praktiki bacarıqlar qazanmaq, müəllimlərə isə tədrisin keyfiyyətini artırmaq üçün dəyərli imkanlar yaradır. Ən önəmlisi isə odur ki, layihə gənc mütəxəssislər arasında dayanıqlı iqlim savadlılığını və ekoloji məsuliyyəti təşviq edərək Azərbaycanın enerji keçidi üçün ixtisaslı işçi qüvvəsinin formalaşmasına töhfə verir".

Layihə "World Skills Azerbaijan" İctimai Birliyi tərəfindən həyata keçirilib. Keçən ilin may ayında başlanmış və 2025-ci ilin iyul ayında sona çatmış bu layihənin ümumi dəyəri 322 min manat təşkil edib.

Qeyd edək ki, BP şirkəti Azərbaycanda 33 ildir ki, neft və qazın kəşfiyyatı, işlənməsi və nəqli üzrə iri layihələrin əməliyyatçısıdır və bu layihələrin icrasını təhlükəsiz, səmərəli və etibarlı şəkildə həyata keçirir. Şirkət bu vaxtadək öz tərəfdaşları ilə birlikdə ölkədə icraçısı olduğu layihələrə 87 milyard dollardan çox sərmayə qoyub.

BP ölkəmizdə eləcə də ən çox töhfə verə biləcəyinə inandığı sahələrə yönəltməklə dayanıqlı inkişaf təşəbbüslərinə dəstək verir. Həmin təşəbbüslər geniş sosial sərmayə fəaliyyətləri və bacarıqların inkişaf etdirilməsi istiqamətindəki səylərlə insanlara əhəmiyyətli faydalar gətirib. Qısaca sosial layihələr adlandırdığımız sözügedən təşəbbüslər yerli potensialın yaradılması, təhsil, icmaların inkişafı, yerli sahibkarlıq, ətraf mühit, idman potensialının artırılması, habelə ölkənin zəngin mədəni irsinin tədqiqi və təbliği kimi sahələrə yönəlib.

Fəaliyyətə başladığı vaxtdan indiyədək BP özü və əməliyyatçısı olduğu birgə layihələrdəki tərəfdaşları adından Azərbaycandakı sosial sərmayə layihələrinə ümumilikdə 111 milyon dollardan çox vəsait xərcləyib.

*Flora SADIQLI, "Azərbaycan"*

## Dostluğu həmişə örtülü bazar pozmur

### Kənd təsərrüfatı məhsullarımızın ixrac zəncirinin qırılmaması üçün alternativ bazarlar tapılmalıdır

**Məlumdur ki, kənd təsərrüfatı məhsullarının ixracı həm istehsalçılara, həm də ölkəyə yaxşı qazanc gətirir. Pomidor, alma, fındıq kimi məhsullarımızın xaricdə kifayət qədər alıcıları var. Azərbaycanın qeyri-neft ixracında da bu məhsulların payı az deyil.**



Azərbaycanın meyvə-tərəvəz məhsullarının ixracında isə Rusiya bazarının xüsusi çəkisi yüksəkdir. Amma iki ölkə arasında münasibətlərin indiki həssas məqamında bu, bir qədər risklidir. Ona görə də alternativ bazarlar tapılmalıdır. Belə bazarlar sırasında isə ərəb ölkələri və Çin önə çıxa bilər. Birləşmiş Ərəb Əmirlikləri, Qətər, Səudiyyə Ərəbistanı və Çin bazarları Azərbaycan üçün yeni ixrac imkanları və şaxələnmiş ticarət marşrutları deməkdir. Həmin ölkələrin də hər biri öz tələbatı və ehtiyacları ilə Azərbaycan məhsullarına açıqdır ki, bu da bizə qeyri-neft sektorunu gücləndirmək üçün əlavə imkan verir. İqtisadçı ekspert Xaliq Məmmədov deyir ki, həmin ölkələrdə kənd təsərrüfatı məhsullarına tələbat yüksəkdir və bazarlar dinamikdir: "Ancaq burada sertifikatlaşdırma, məhsulun mənşəyi, təhlükəsizlik standartları və qablaşdırma kimi tələblərə ciddi riayət edilməlidir. Yerli sahibkarlar həmin istiqamətlərdə maarifləndirilməli və texniki dəstək almalıdırlar".

Məlumdur ki, məhsulun keyfiyyəti ilə bərabər, ixrac prosesinin həm logistika, həm də maliyyə baxımından səmərəli idarə olunması da mühüm əhəmiyyət kəsb edir. Bu sahədə Qida Təhlükəsizliyi Agentliyi və digər müvafiq qurumlar mühüm addımlar atmağa çalışsa da, Azərbaycanın kənd təsərrüfatı məhsulları üzrə ixrac potensialı tam olaraq reallaşmayıb. Aqrar məhsullarımızın Avropa bazarlarına çıxışı hələ də müəyyən maneələrlə qarşılaşır. Bu çətinliklər müvafiq infrastrukturun zəifliyi, ticarət prosedurlarının mürəkkəbliyi və məhsullarımızın beynəlxalq bazarlarda rəqabət gücünün artırılması kimi məsələlərlə əlaqədardır. X.Məmmədov bununla bağlı belə şərh verib: "Avropa İttifaqı yüksək keyfiyyət və təhlükəsizlik standartları tətbiq edir. Bu bazara daxil olmaq üçün məhsullar bir sıra normalara cavab verməlidir. Məsələn, hər 15 gündən bir su analizlərinin aparılması, qablaşdırma prosesində gigiyenik qaydalara əməl olunması və daşınma zamanı məhsulların xüsusi temperatur rejimində saxlanması vacib şərtlərdir. Təbii ki, bütün bu tələblər texniki və maliyyə baxımından istehsalçılar üçün əlavə yük yaradır".

Amma nə etmək olar, qazanmaq istəyiriksə bazarın tələbləri ilə ayaqlaşmalıyıq. Ekspertin fikirlərinə söykənərək deyə bilərik ki, Azərbaycanın kənd təsərrüfatı məhsullarının Avropa bazarlarında möhkəmlənməsi üçün yalnız qısamüddətli addımlar kifayət etməyəcək. Bu, kompleks və uzunmüddətli bir strategiya tələb edir. Belə bir strategiya məhsulların keyfiyyətinin artırılmasından tutmuş, beynəlxalq ticarət şəbəkələrinə inteqrasiya olunmağa qədər bir çox sahəni əhatə edir. Üstəlik, bu istiqamətdə yalnız dövlətin deyil, həm də özəl sektorun fəal iştirakı vacibdir. Kənd təsərrüfatı sahəsinə innovativ yanaşmalar, yeni istehsal texnologiyaları və bazar tələblərinə uyğunlaşma əsas şərtlərdəndir. Bütün bunlar Azərbaycanın kənd təsərrüfatı məhsullarının xarici bazarlarda rəqabət qabiliyyətini artıra və ölkə iqtisadiyyatı üçün yeni imkanlar yarada bilər. Ekspert deyir ki, fermerlər texniki biliklərlə yanaşı, təlim və maliyyə alətləri vasitəsilə də dəstəklənməlidir: "Bazarların texniki və hüquqi tələblərinə uyğunlaşma yalnız kompleks yanaşma ilə mümkündür. Məqsəd təkcə ixracı artırmaq deyil, onun sabitliyi və davamlığı da təmin olunmalıdır".

Azərbaycanın qeyri-neft məhsullarının Rusiya bazarına çıxışı uzun illər ərzində böyük əhəmiyyət kəsb etmişdir. Lakin son aylar Rusiya tərəfindən tətbiq olunan səbəbsiz məhdudiyyətlər və idxal prosedurlarında yaranan qeyri-müəyyənliklər, məsələn, kənd təsərrüfatı məhsullarına qoyulan embarqolar ixracatçılar üçün ciddi problem yaradır. Ona görə də ixrac, idxal əməliyyatlarının etibarlığını artırmaq üçün gömrük prosedurlarının sadələşdirilməsi, logistikanın optimallaşdırılması və alternativ bazarlara yönələn strategiyaların hazırlanması kimi tədbirlər qaçılmazdır. Paralel olaraq potensial alternativ bazarlar axtarışı unudulmamalıdır. Artıq bu istiqamətdə daha səmərəli logistika, yeni ticarət marşrutları və beynəlxalq əməkdaşlıq yolları üzərində işləməyin vaxtıdır. Bu, Azərbaycanın qeyri-neft məhsulları ixracının etibarlığı və davamlığı üçün vacibdir.

*Züleyxa ƏLİYEVA, "Azərbaycan"*

## Xoşbulaq yaylağında yollar təmir edilir



**Ölkəmizdə ekoloji cəhətdən təmiz olan çoxlu sayda yaylaqlar var ki, insanlar hər il yay mövsümündə həmin yerlərə üz tutur, həm təbiətin qoynunda dincəlir, həm də sağlamlıqlarını bərpa edirlər.**

Belə yaylaqlardan biri də Daşkəsənin Xoşbulaq kəndidir. Hər il yaxın və uzaq bölgələrdən gələn minlərlə insan burada dincəlməyə üstünlük verir. Ərazidə aparılan abadlıq-quruculuq işləri isə onlarda əlavə xoş ovqat yaradır. Bu günlər kəndin daxili yollarında cari təmir işləri aparılmışdır. Kənddə infrastrukturun yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlər çərçivəsində sel sularının yararsız hala saldığı küçələr hamarlanmış, ərazinin əsas və ara yollarında yaranmış çatlar və çalalar aradan qaldırılmış, yollara qum-çınqıl qarışığı tökülmüşdür. Texnika ilə hamarlama və sıxlaşdırma işləri yerinə yetirilməklə çətin keçilən yollar işlək vəziyyətə gətirilmişdir. Bununla yanaşı, su axarlarının normal fəaliyyətini təmin etmək üçün yolların kənarındakı arxlar təmizlənmişdir.

*Sabir ƏLİYEV, "Azərbaycan"*

## Biləsuvarda 2-ci "İti dəryaz" otbiçmə yarışı keçirilib

**Biləsuvar rayonunda qeyri-maddi mədəni irsin qorunması və təbliği məqsədilə artıq ikinci dəfədir ki, "İti dəryaz" otbiçmə yarışı təşkil olunub. Vətən müharibəsi şəhidlərinin xatirəsinə salınmış "Zəfər parkı"nda keçirilən yarış təsərrüfatı ənənələrinin yaşadılması və ictimai dəyərlərin təşviqi baxımından mühüm əhəmiyyət daşıyır.**



Rayonun müxtəlif kəndlərini təmsil edən 20 komandanın iştirakı ilə keçirilən yarışda hər komandada 2 nəfər olmaqla ümumilikdə 40 nəfər iştirak edib. Yarışdan əvvəl çıxış edən RİH-in başçısı Faiq Qürbətov iştirakçılara uğurlar arzulayaraq qeyd edib ki, dəryazla ot biçmək Azərbaycanın qeyri-maddi mədəni irs nümunələri sırasında yer alır və bu ənənə uzun əsrlər boyu formalaşaraq bu günədək gəlib çatıb. Bildirib ki, qədim zamanlar biçin mövsümündə keçirilən mərasimlər çərçivəsində dəryazçılar arasında yarışlar təşkil olunurdu və bu yarışlar vasitəsilə ən usta şəxslər seçilirdi. Bu gün də xalqımızın bu qədim ənənəsinə sadiq qalaraq, mövsüm ərzində dəryazla ot biçinlərini davam etdirdiyini deyən F.Qürbətov söyləyib ki, bu cür yarışların təşkili yalnız mədəni irsin qorunması deyil, eyni zamanda əmək bacarıqlarının nümayişi və insanlar arasında həmrəyliyin gücləndirilməsi baxımından da xüsusi önəm daşıyır.

Sonra dəyrazçıların biçin yarışı başlayıb. Yarışın nəticələrinə əsasən, birinci yeri Çaylı, ikinci yeri Təzəkənd, üçüncü yeri Dərvişli kəndlərinin komandaları qazanıblar. Həm onlar, həm də "Ən qocaman dəryazçı" - Aşağı Cürəli kənd sakini, 66 yaşlı Nəriman Məmmədov və "Ən gənc dəryazçı" - Səmədabad kənd sakini, 23 yaşlı Nahid Əhədli mükafatlandırılıblar.

*Seyran CAVADOV, "Azərbaycan"*





# Vətən deyəndə...





● Tarix yazan oğullar

# Muradın işığı

## Dediyi kimi də oldu - 15 gün sonra cəbhədən döndü, amma özü yox, nəşi

**Şəhid ailəsi ilə bir gün əvvəl danışmışdıq. Görüşəcəyimiz vaxtı dəqiqləşdirmişdik. Budur, artıq yoldaydıq və deyilən ünvana üz tutmuşduq.**

Səhərin gözü təzə açılsa da, hava xeyli isti idi. Bir az iti addımlarla gedirdik ki, gecikməyək. Şəhid anası Mehriban Qurbanova demişdi ki, ünvanımızı tapmaq çox asandır. Dayanacaqda avtobusdan düşəndə kimdən soruşsanız Muradgilin evləri haradadır, sizə göstərəcəklər. Mehriban xanımın nişan verdiyi yerdə avtobusdan düşən kimi ilk qarşımıza çıxan orta yaşlı bir qadından Muradgilin evlərinin yerini soruşduq. Ünvan uzaqda deyilmiş.

Bir az irəli boylananda evin qapısını açıq gördük. Asta səslə Mehriban xanımı səslədik. İçəridən ayaq səslərini eşitdik. Deməli, evdədirlər. Bir-iki dəqiqə sonra şəhid anası qapının ağzına çıxdı. Kövrək addımlarla yurdumuzun azadlığı uğrunda şəhid olmuş Muradın böyüdüyü evə qədəm qoyduq. Divarlara onun hərbi formada olan böyüdülmüş şəkilləri vurulmuşdu. Şəkillərdən üzümüzə boylanan baxışlardan igidlik və cəsurluq yağırdı. O qədər təbii idi ki, sanki elə bu dəqiqə dil açıb danışacaq, əl uzadıb görüşəcək, bizə "xoş gəlmisiniz" deyəcək.

Şəhid Murad Qurbanovun xatirələrini özündə yaşadan albomlara və bu albomlardakı şəkillərə baxa-baxa Mehriban xanımla söhbət edirik. Şəhid anası sözü oğlunun ömür və döyüş yollarına kökləyir. Tələsmədən Muradın həyat yolunu sətir-sətir vərəqləyir. O danışdıqca cəsur Vətən oğlunun ömür yolu gözlərimiz qarşısında oxunmamış maraqlı bir kitab kimi səhifələnir.

Ananın dediklərindən öyrənirik ki, Murad Qurbanov 23 mart 1996-cı ildə Salyan rayonunda dünyaya göz açıb. Birinci sinfə rayondakı 2 nömrəli orta məktəbdə gedib. Yazmağı da, oxumağı da elə burada öyrənib. İş elə gətirib ki, bir ildən sonra ailə vəziyyəti ilə əlaqədar Bakıya köçməli olublar. Murad təhsilini 20-ci sahə adlanan ərazidə yerləşən 51 nömrəli məktəbdə davam etdirib. Sanki bir-birini əvəz edən illər onu tez böyüdüb. Orta təhsilini bitirdikdən sonra Bakı Maliyyə-İqtisad Kollecinə qəbul olub. 2015-ci ildə ordu sıralarına yollanıb. Qismətinə cəbhə bölgəsində yerləşən hərbi hissədə xidmət etmək düşüb. Elə ilk günlərdən başlayaraq təlim-məşqlərdə fəal iştirak edərək silah və hərbi texnikanın sirlərini həvəslə öyrənib. Uğurla keçən təlimlərdə döyüş vərdişlərinə yiyələnib. Silahlardan məharətlə istifadə edərək hədəfləri dəqiq vurub, bacarığı ilə bölüyün fərqlənən əsgərlərindən olub.

Murad ordumuzun böyük uğuru və üstünlüyü ilə başa çatan aprel döyüşlərində iştirak edib. Onların bölükləri müxtəlif günlərdə Tərtər və Goranboy rayonlarının müdafiəsində dayanıb. Murad dörd gün ərzində erməni qəsbkarlarına qarşı cəsarətlə vuruşub. Əsgər kimi üzərinə düşən döyüş tapşırıqlarının öhdəsindən layiqincə gəlib. Cəsarəti ilə komandanlığın və əsgər dostlarının rəğbətini qazanıb.

2017-ci ildə ordu sıralarından döndükdən sonra ticarətlə məşğul olub. Binə Ticarət Mərkəzində işləyib. İllər ötüb keçdikcə yaşa dolan Murad yavaş-yavaş gələcək həyatının bünövrəsinə ilk kərpiclər qoymağa başlayıb. 2020-ci il avqust ayının 20-də gözəl qızların içindən ürəkdən sevib-seçdiyi Nəzrinlə nişanlanıb. Ailə böyük sevinc içində toya hazırlaşıb. Murad arzusuna, istəyinə çatacağı, xoşbəxt anlarını görəcəyi günlərin arzuları ilə yaşayıb, ömrünün sabahları haqqında bir-birindən şirin xəyallar qurub.





Amma nə edəsən ki, qəfil başlayan İkinci Qarabağ müharibəsi bir çoxları kimi Murad Qurbanovun da onu xoşbəxt gələcəyə aparacaq planlarını pozub. Toya hazırlaşmaq işləri təxirə salınıb. Çünki doğma yurda düşmən hücumu, yağı təcavüzü başlamışdı. Təbiidir ki, ürəyi Vətən sevgisi ilə döyünən Murad vətənimiz və xalqımız üçün belə çətin günlərdə yalnız şəxsi həyatını düşünüb öz qayğıları ilə yaşaya bilməzdi. İkinci Qarabağ müharibəsinin başladığı ilk gündən Murad könüllü olaraq döyüşə can atırdı. İstəyirdi ki, qanlı döyüşlərin alovlandığı Qarabağa yollansın, erməni qəsbkarları ilə vuruşsun, uzun illərdən bəri işğalda qalmış torpaqları ermənilərdən azad etsin, şəhidlərin qisasını alsın.

Murad istəyinə 2020-ci il sentyabrın 29-da çatdı. Həmin gün - nişan mərasimindən 39 gün sonra döyüşmək üçün könüllü olaraq Qarabağa yollanıb. Elə ilk döyüşlərindən başlayaraq Vətənin azadlığı uğrunda igidliklə vuruşub. Torpaqlarımızı ermənilərdən təmizləmək naminə döyüşüb. Doğmalarının yanına qalib əsgər kimi dönmək amalı ilə savaşıb. Əvvəlcə onları Füzuli istiqamətinə göndəriblər. Beş-altı gündən sonra isə Cəbrayıl uğrunda gedən döyüşlərə cəlb olunublar. Həmişə ön sıralarda addımlayan Murad cəsarətlə vuruşur, güllələri düşmənlərin başına dolu kimi yağdırırdı. Oktyabrın 7-də onları Cəbrayıldan Xocavəndə gətiriblər. Həmin günlər bu istiqamətdə də gərgin döyüşlər gedirmiş. Muradgil Hadrut qəsəbəsinin azadlığı uğrunda vuruşurmuşlar. Həmin günlər Azərbaycan Ordusu düşməni geri sıxışdıra-sıxışdıra addım-addım torpaqları ermənilərdən azad edirdi. Başı nə qədər döyüşlərə qarışsa da, Murad vaxt tapıb evə zəng vurmağı da unutmurmuş. Vaxtaşırı anasına, bacısına zəng edib, sağ-salamat olduğunu deyirmiş.

Oktyabrın 10-dan sonra ondan doğmalarına zəng gəlməyib. Ayın 12-də isə bu cəsur əsgərin torpaqlarımızın azadlığı uğrunda şəhid olduğunu eşidiblər. Ertəsi gün - oktyabrın 13-də Murad böyük izdihamla Badamdar qəsəbəsindəki Şəhidlər xiyabanında torpağa tapşırılıb. Murad qısa, amma mənalı, şərəf dolu bir ömür yaşayıb. Yaxınları, doğmaları həmişə onun igidliyi və qəhrəmanlığı ilə fəxr edəcək, qürur duyacaqlar.

Şəhid Murad Qurbanovun ömür və döyüş yolu ilə qısaca tanış olduqdan sonra Mehriban xanımla söhbətimizi davam etdirdik. Kövrək duyğulara köklənən şəhid anası dedi:

- Oğlum çox mehriban, qayğıkeş bir uşaq idi. Əliaçıq idi, nəyi olardısa, yaxınları ilə bölüşərdi. Ürəyi daim həyat eşqi ilə dolub-daşırdı. Uşaqlıqda dəcəl idi. İllər keçdikcə dəcəlliyi arxada qalır, işləyə-işləyə formalaşır, püxtələşirdi. Ömür yolları onu üzü sabahlara doğru aparırdı. Murad gələcəyinə böyük ümidlərlə baxırdı. Ailə qurmaq istəyirdi. Özünə gələcək həyat yoldaşı da seçmişdi, nişanlanmışdı. Vətən müharibəsinin başladığını eşidəndə dedi ki, ana, çağırmasalar da, cəbhəyə gedəcəyəm. İnşallah toyu müharibədən sonra da edə bilərik. Əsas yurdumuzun, vətənimizin taleyidir. Soruşdum ki, axı evimizin dayağı, kişisi sənsən, bizi kimin ümidinə qoyub gedəcəksən? Cavab verdi ki, mən erməniləri aprel döyüşlərində görmüşəm, çox qorxaqdırlar. Birini öldürəndən sonra qalanları qaçıb gedir. Torpaqlarımızı tez bir zamanda işğaldan azad edəcəyik. Əgər döyüşə getsəm, çox yox, haradasa 15 gündən sonra qələbə ilə qayıdacağam. Xeyli danışıb dilə tutsam da, onu fikrindən döndərə bilmədim. Murad tutduğu yoldan geri addım atmadı.

29 sentyabr 2020-ci ildə gecə saat üç radələrində onu döyüşən ordunun sıralarına yola saldım. Ertəsi gün aparıldığı hərbi hissəyə - yanına getmişdim. Artıq əsgər forması geyinmişdi. Həmişə səliqə-sahmanlı olan gur saçlarını da qırxmışdılar. Dedi ki, ana, heyf saçlarımdan. Nə qədər xahiş etsəm də, dedilər ki, mütləq qırxılmalıdır. Ayrılarkən Murad bir daha təkrar etdi ki, inşallah 15 gündən sonra qələbə ilə qayıdacam. Bu, mənim oğlumla son görüşüm oldu.

Sentyabrın 29-da Muradı döyüşə yola salandan sonra gözümüz yolda, qulağımız səsdə qaldı. Oğlum tez-tez zəng vurub iştirakçısı olduğu döyüşlərdən, azad etdikləri şəhər və kəndlərdən, qazandıqları uğurlardan danışırdı. Ondan zəfər dolu xəbərləri eşitdikcə sevinirdik, ürəyimiz açılırdı. Təəssüflər olsun ki, sevincimiz uzun çəkmədi. Oktyabrın 10-da onun zəngi yox, mesajı gəldi. Yazmışdı ki, məndən nigaran qalmayın, sağ-salamatam. Sonrakı iki gündə ondan zəng gəlmədi. Zənglərin arası kəsildiyinə görə nigarançılığımız artdı.

Oktyabrın 12-də iş yoldaşlarım dedilər ki, sizin ünvanınıza şəhid gətirirlər. Bu xəbəri eşidəndə az qaldı həyəcandan ağlım başımdan çıxsın. Sonra dedilər ki, şəhid olan sənin oğlun deyil, Əli Tağıyev adlı bir əsgərdir. Yazıq Əli də qonşuluğumuzda yaşayırdı. Başım nə qədər iş-gücə qarışsa da, içimdə bir narahatlıq dolaşırdı. Həmin gün axşam saat 7 radələrində qapımızı bəd xəbər döydü: Murad Hadrut uğrunda gedən döyüşlərdə şəhid olmuşdu. Bu acı xəbəri eşidəndə dünya başıma dolandı. Yaxın zamanlarda ailə həyatı qurmağa, xoşbəxt bir həyat yaşamağa hazırlaşan oğlum Vətən yolunda canından keçmişdi.

Muradın meyitini məscidə gətirmişdilər. Dedim ki, mən mütləq onun nəşini görməliyəm. Gecəylə məscidə getdik. Ürəyimi bərkidib oğlumun meyitinə baxdım. Ona görə baxdım ki, mən Muradın ölümünə inanmırdım. O, həmişə verdiyi sözə əməl edərdi. Oğlum döyüşə getməzdən əvvəl söz vermişdi ki, 15 gündən sonra qayıdacaq. Hesablayıb gördüm ki, oğlumun döyüşə yollandığı vaxtdan düz 15 gün keçib. Deməli, şəhid olsa da, verdiyi sözə xilaf çıxmamışdı. 15 gündən sonra evimə şəhid kimi qayıtmışdı. Murad bu dəfə evimizə yox, yaxınlarının, doğmalarının könüllərinə, qəlblərinə və ürəklərinə qayıtmışdı. Bundan sonra Murad onu tanıyanların yaddaşında yaşayacaq.

Düşmən mərmisindən qopan qəlpə Muradın ürəyindən dəymişdi. Yaxınlığında olan əsgər yoldaşları danışırdılar ki, son nəfəsində "ay, məni ürəyimdən vurdular", - deyib. Bu onun dilindən qopan sonuncu kəlməsi olub. Oktyabrın 13-də Muradı böyük izdihamla torpağa tapşırdıq. Murad sağlığında da həmişə başımızı el içində uca etmişdi, ölümü ilə də bir daha bunu təkrarladı. Oğlumun xatirəsini əziz tutanların hamısına dərin minnətdarlığımı bildirirəm. Bir zamanlar oxuduğu 51 nömrəli orta məktəbdə Muradın büstü qoyulub. Təhsil ocağının önünə xatirə lövhəsi vurulub. Bütün bunları görəndə az da olsa təskinlik tapırıq. İgidliyi və qəhrəmanlığı ilə öyünürük.

Cəsur əsgər, canını yurdumuzun azadlığı uğrunda fəda etmiş Muradın bacısı İlahə Qurbanova da qardaşını kövrək hisslərlə xatırladı:

- Mənim üçün Murad haqqında keçmiş zamanlarda danışmaq çox çətindir. Çünki onun ölümünə inanmıram. Qardaşımla bir evdə böyümüşük, bir məktəbdə oxumuşuq. Uşaqlığımız bir yerdə keçib, bir məhəllədə oynamışıq. Anam bizi çox ərköyün böyüdüb. Özü əziyyət çəksə də, atasızlığı bizə hiss etdirməyib. Müharibənin başladığını eşidəndə Murad dedi ki, bacı, mən döyüşlərə gedəcəyəm. Xasiyyətinə yaxşı bələd idim. Bilirdim ki, əgər dedisə, deməli mütləq gedəcək. Getdi də. Demək olar ki, hər gün cəbhədən zəng vurub anamla da, mənimlə də danışırdı.

Oktyabrın 10-dan sonra zəngləri kəsildi. Bir gündən sonra nömrəsini yığanda telefonunu başqa bir əsgər açdı. Muradı soruşanda dedi ki, siz hansı Muradı deyirsiniz? Mən qardaşımın familiyasını, müxtəlif bədən əlamətlərini, üz cizgilərini nişan verdim. Əsgər dedi ki, indi sizə şəkillər göndərəcəm, baxın görün qardaşınız onların hansıdır. İki-üç dəqiqə keçər-keçməz telefonuma şəhid şəkilləri göndərdilər. Çox təəssüflər ki, şəkildəkilərdən biri qardaşım Murad idi. Həmin anda keçirdiyim sarsıntını, çəkdiyim ağrı-acını sözlə ifadə etmək çətindir. Dünyalarca sevdiyim qardaşım yurdumuzun azadlığı uğrunda şəhid olmuşdu. Bir evin oğlundan, bir elin oğluna çevrilmişdi. Qardaşım övladlarım Firdovsini də, Gülçiçəyi də çox istəyirdi. Murad qəlbimizdə elə bu cür istəkli də qalacaq. Vətən uğrunda şəhid olmuş qardaşımla həmişə fəxr edəcəyəm, qürur duyacağam...



Bu yerdə söhbətimizə üç nöqtə qoyub doğmaları ilə evlərində Muradın xatirəsinə düzəldilmiş guşəyə baxdıq. Guşədəki bütün əşyalarda onun pozulmaz izləri var. Muradın nişan üzüyü də buradadır. Mehriban xanım deyir ki, oğlumun nişanlısına aldığım üzüyü geri götürmədim. Fikirləşdim ki, qoy üzük həmişəlik olaraq oğlumdan Nəzrinə xatirə qalsın. Guşədəki albomları da vərəqlədik. Albomda Murad haqqında xeyli xoş sözlər yazılmışdı. Guşədəki medalların vəsiqələrinə də baxanda öyrəndik ki, İkinci Qarabağ müharibəsində göstərdiyi igidliyə və qəhrəmanlığa görə Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə əsgər Murad Qurbanov "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medallarına layiq görülüb.

Qəribədir, Muradın adını dilimə gətirəndə gözlərim önündə "Ağ atlı oğlan" filmindəki balaca Murad obrazı canlanır. O Murad ki, valideynlərindən xəbərsiz evdən qaçaraq cəbhə bölgəsinə getmişdi. Getmişdi ki, qələbəmiz naminə yurdu qoruyan döyüşçülərə qoşulsun, onlara kömək etsin. Belə duyğulu anlarda düşünürəm ki, bəlkə də bu, elə kinodakı həmin Muraddır. İndi böyüyüb əlinə silah alaraq cəbhə bölgəsinə yollanıb. Döyüşüb, vuruşub, erməni qəsbkarlarını məhv edərək qələbə qazanıb, torpaqları işğaldan azad edib.

Oğul və qardaş itkisi ilə yaşayan bu kövrək xanımlarla sağollaşırıq. Onlarla bərabər, biz Muradın evin qarşısına vurulmuş xatirə lövhəsindən boylanan odlu-alovlu baxışları yola salır. İlahə xanım bizi bir anlıq yoldan saxlayıb başımızın üstündəki işığı göstərərək deyir ki, bunu Murad cəbhəyə yola düşməzdən bir az əvvəl boya qabından düzəltmişdi. İndi hər axşam biz "Muradın işığı"nın ətrafına yığışırıq. Neçə ildir ki, bu işıq qaranlıqlara nur çiləyir. Evdən aralanıb addımladıqca fikirləşirik ki, "Muradın işığı" heç vaxt sönməyəcək. Bu işığın nuru heç vaxt tükənməyəcək. Təkcə qaranlıqları deyil, doğmalarının ürəklərini də, qəlblərini də daim işıqlandıracaq. Sonra da yavaş-yavaş daha da gurlaşaraq dünyamızı işığa, nura boyayacaq.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan "***

## Milli Qəhrəman Əsəd Əhmədovun xatirəsi anılıb

**Şəhidlər xiyabanında Azərbaycanın Milli Qəhrəmanı, tank komandiri Əsəd Əhmədovun anım günü keçirilib.**



Tədbirdə Milli Qəhrəmanın ailə üzvləri, doğmaları, döyüşçü yoldaşları, Qərbi Azərbaycan İcmasının nümayəndələri və başqaları iştirak ediblər. Əvvəlcə mərasim iştirakçıları onun məzarı üzərinə tər qərənfillər düzərək, xatirəsini dərin hörmət və ehtiramla yad ediblər, ruhuna dualar oxunub.

Tədbirdə çıxış edən Qərbi Azərbaycan İcmasının nümayəndəsi Anar Osmanov Prezident İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində qazanılmış Zəfərin əhəmiyyətindən danışıb. Həmvətənlərimizin tarixi torpaqlarımıza, doğma yurd yerlərimizə qayıtmasının qürurunu yaşadıqlarını deyib. O, Ə.Əhmədov kimi vətənpərvər oğulların Birinci Qarabağ müharibəsində göstərdikləri qəhrəmanlıqlardan örnək alan oğulların Vətən müharibəsindəki igidliyindən və rəşadətindən söhbət açıb. Xalqımızın qədim torpaqlarımız olan Qərbi Azərbaycana qayıdacağına da əminliyini ifadə edib.

Veteran Tankçılar İctimai Birliyinin sədri, Ə.Əhmədovun komandiri olmuş Hacı Əzimov, onun döyüş yoldaşları, veteran tankçılar Milli Qəhrəmanla bağlı xatirələrini bölüşüblər, vətənpərvərliyindən, qorxmazlığından danışıblar. Əsəd Əhmədovun qısa, lakin şərəfli ömrünün gələcək nəsillərə örnək olduğunu vurğulayıblar.

## Moldovada şəhid övladları üçün "Qardaşlaşmış Qarabağ məktəbləri" yay düşərgəsi keçirilir

**İyulun 29-dan avqustun 4-dək Moldovanın paytaxtı Kişineu şəhərində "Konstitusiya və Suverenlik İli"nə həsr olunmuş "Qardaşlaşmış Qarabağ Məktəbləri" VI yay düşərgəsi keçirilir.**




Diasporla İş üzrə Dövlət Komitəsindən bildirilib ki, Azərbaycan Diasporuna Dəstək Fondunun dəstəyi ilə baş tutan düşərgənin təşkilatçıları "CAM" Azərbaycan Moldova Birliyi, "Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyi, Moldova Azərbaycanlıları Konqresi və Azərbaycanlıların İsveçrədəki Mədəniyyət Mərkəzidir.

Tədbirdə Azərbaycandan olan şəhid övladları ilə yanaşı, Moldovada yaşayan azərbaycanlı ailələrin övladları da iştirak edirlər.

Proqram çərçivəsində iştirakçılar müxtəlif sahələr üzrə peşəkar təlimlərə qatılacaq, tanışlıq və qrup fəaliyyətləri vasitəsilə yeni bilik və bacarıqlara yiyələnəcəklər. Eyni zamanda onlar Moldovanın tarixi, mədəni və turizm məkanlarını ziyarət etmək imkanı qazanacaqlar.

## PUA Akademiyasında növbəti buraxılış mərasimi keçirilib

**2025-ci ilin hazırlıq planına uyğun olaraq, Hərbi Hava Qüvvələrinin Pilotsuz Uçuş Aparatları (PUA) Akademiyasında PUA mütəxəssislərinin hazırlığı kursunun buraxılış mərasimi olub.**




Müdafiə Nazirliyinin Mətbuat və ictimaiyyətlə əlaqələr idarəsindən verilən məlumata görə, əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət himni ifa olunub.

Tədbirdə çıxış edən polkovnik Mobil Ovçiyev məzunları Müdafiə Nazirliyinin rəhbərliyi adından təbrik edib, onlara gələcək xidmətlərində uğurlar arzulayıb.

Sonda kursu bitirən hərbi qulluqçulara sertifikatlar təqdim olunub.

## Bazar günü etüdü



# Sirli-sehrli gecələr

*Sirli-sehrli, nurlu, qürurlu, bir-birindən uğurlu gecələr. Sakitliyi, həzinliyi, gözəlliyi, bənzərsizliyi ilə həmişə bizi sehrinə salan, gözümüzdə daim ucaldıqca ucalan, ən heyrətamiz möcüzələri xatırladan, şirin nağıl kimi damla-damla ürəyimizə, qəlbimizə yatan, daim sevincimizə sevinc qatan, ürəyimizdən dərdi, qəmi silib atan gecələr.*

*Hər axşam sirli-sehrli, baxdıqca, seyr etdikcə ruhumuza dinclik, əmin-amanlıq, sakitlik gətirən, uca göylərdən, Aydan, ulduzlardan bizə salamlar yetirən gecələr. Bəzən uzun, bəzən qısa, bəzən xoş, ürəyəyatımlı, bəzən yorucu, bezdirici, üzücü gecələr.*

*Küləkli-küləksiz, yağışlı-yağmurlu, qarlı-çovğunlu gecələr. Necə də yaraşıqlı, bir az işıqlı, qaranlığa, zülmətə bürünmüş, sübhün gözəlliyinə ürəkdən vurulmuş gecələr. Sanki axşamdan səhərə qədər karvanlara qoşulub dağlardan aşmış, düzlərdən keçmiş, uzun yol qət etmiş, əldən düşüb yorulmuş, güclü küləklər kimi sovrulmuş gecələr. Buludlu-buludsuz, ulduzlu-ulduzsuz gecələr, sevinci, fərəhi, qəmi, kədəri sərhədsiz gecələr.*

*Hərdən sakit, rahat, rəvan, səssiz-küysüz, hərdən də səsli-küylü, nadinc, dəlisov gecələr. Dərindən-dərin, sərindən-sərin, şirindən-şirin, bəzəyi olan gecələr.*

*İllərdən, əsrlərdən, qərinələrdən, dünənlərdən, ötənlərdən, keçənlərdən, savaşlardan, müharibələrdən, dava-dalaşlardan, qədim-qədim tarixlərdən xəbər verən gecələr. Yəqin elə buna görə də nə yatar, nə də dincələr gecələr. Doğrudan da, hamı yatar, dincələr, ancaq heç vaxt yatmaz, gözünü belə yummaz, qırpmaz, sübhədək oyaq qalar, qaranlıqlara, zülmətlərə dayaq olar gecələr. Həmişə yer üzünə göy üzündən soraq verər gecələr. Bəs bu yazıq gecələr, heç bilinməzmi ki, harada qalar, harada yatar, harada yaşayar gecələr?..*

*Sinəsi, başının üstü həmişə ulduzlarla dolu olan, sabaha qədər yatmayan, sübhün açılmasını gözləyə-gözləyə gözünü yummayan gecələr. Buna görə kimsədən heç bir pay ummayan, gecənin keşiyini çəkməkdən heç vaxt yorulmayan, usanmayan gecələr. Qaranlıqdan başqa rəngə boyanmayan, heç vaxt ayaq saxlamayan, dayanmayan, dincəlməyən gecələr.*

*İstərdik ki, çox yorulmasın, hərdən oturub dincəlsin, toxdasın, sakitləşsin, daha da gözəlləşsin, şirinləşsin, həzinləşsin, heç vaxt istiyə düşməsin, getdikcə sərinləşsin, dərinləşsin gecələr. Heç vaxt yorğun qalmasın, gecənin qaranlığında, sakitliyində insanlardan gördüklərindən, eşitdiklərindən gözləri dolmasın, məyus olmasın, acı fikirlərə, narahat düşüncələrə qapılmasın gecələr. Qoy həmişə üzü gülsün, çöhrəsi gülüşə bürünsün, ürəyi açılsın, könlü şadlansın, qəlbi sevinclə, fərəhlə dolsun, çiyinlərinin üstündə saxladığı Aydan, ulduzlardan həmişə üzünə təbəssüm süzülsün. Bütün dərdləri, ağrıları çözülsün, həmişə olduğu kimi qəşəng və gözəl görünsün gecələr.*

*Ən gözəl, dəyərli, qiymətli əsərlər də elə insanları sehrində saxlayan, mehrinə salan sirli-sehrli gecələrdə yazılır. Sanki yazıldıqca bu əsərlərə, bu əsərlərin mətninə gecələrin gözəlliyi də, bənzərsizliyi də hopur. Bu gözəllikdən, bu bənzərsizlikdən sanki dünya da heyrətə gələrək silkələnib yerindən qopur. Bəlkə də elə buna görə də sirli-sehrli gecələrdə yazılan əsərlər maraqla oxunur, həzin-həzin ürəklərə, qəlblərə, könüllərə xoş sözlərlə xalça kimi toxunur. Onları riqqətə gətirir, sevgisini, məhəbbətini coşdurur, zaman-zaman oxucu sevgisi qazanır, qaranlıqda əbədi məşəl kimi yanır. Elə buna görə də gecənin zil qaranlığının bətnindən günəşli, yuxulu bir səhər yavaş-yavaş gözünü açıb oyanır. Dünyamız qaranlıqlardan, zülmətlərdən qurtulub asta-asta işığa, nura boyanır.*

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***



# Bilmək istəyirəm

*Yaxın dostum inzibati xətaya görə məsuliyyətə cəlb olunub. Cəzasının azalması və ya yüngül cəza ilə əvəz olunması üçün hansı hallar nəzərə alına bilər?*

***Teymur HƏTƏMLİ,***
***Şirvan şəhəri***

✓ - Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 31.2-ci maddəsinə əsasən, hər hansı şəxs barəsində inzibati tənbeh tətbiq edilərkən, xətanın xarakteri, inzibati xəta törədən şəxsin şəxsiyyətini xarakretizə edən hallar, onun təqsirinin dərəcəsi, əmlak vəziyyəti, habelə məsuliyyəti yüngülləşdirən hallar nəzərə alınır. Yəni inzibati xətanın xarakterindən asılı olaraq məhkəmə və ya səlahiyyətli orqan inzibati xəta hadisəsini araşdırarkən qeyd olunan məqamları nəzərdən keçirməlidir. Bununla belə, İnzibati Xətalar Məcəlləsi inzibati xəta törətmiş şəxsin əməlinə qiymət verilməsi zamanı yüngülləşdirici halların hansı hallardan ibarət olmasının çərçivəsini müəyyən etmişdir. Həmin hallar məcəllənin 32-ci maddəsində təsbit olunmuşdur və aşağıdakılardan ibarətdir:

- *inzibati xəta törətmiş şəxsin səmimi peşmançılığı;*
- *inzibati xətanın yetkinlik yaşına çatmayanlar tərəfindən törədilməsi;*
- *inzibati xətanın hamilə qadın və ya himayəsində azyaşlı uşağı olan qadın tərəfindən törədilməsi;*
- *inzibati xətanın fiziki və ya psixi məcburiyyət təsiri altında, yaxud maddi, xidməti və ya sair cəhətdən asılılıq nəticəsində törədilməsi;*
- *inzibati xətanın zəruri müdafiənin və ya son zərurətin bu məcəllə ilə müəyyən edilmiş şərtlərini pozmaqla törədilməsi;*
- *inzibati xətanın zərərçəkmiş şəxsin qanunsuz və ya əxlaqsız hərəkətlərinin təsiri altında və ya bu hərəkətlər nəticəsində qəflətən baş vermiş güclü ruhi həyəcan (affekt) vəziyyətində törədilməsi;*
- *törədilmiş inzibati xətanın zərərli nəticələrinin inzibati xəta törətmiş şəxs tərəfindən aradan qaldırılması və ya vurulmuş zərərin əvəzinin könüllü surətdə ödənilməsi.*

Nəzərə almaq lazımdır ki, yuxarıda qeyd olunan yüngülləşdirici hallardan başqa, digər hallar da hakim tərəfindən məsuliyyəti yüngülləşdirən hal qismində nəzərə alına bilər.

Beləliklə, inzibati xəta törətmiş dostunuzla bağlı yuxarıda sadalanan hallar mövcuddursa, ona tənbeh tədbiri tətbiq olunarkən daha yüngül cəzanın verilməsi mümkündür.

*Zəruri müdafiə nədir və hansı hallarda tətbiq olunur? Əgər biri mənə hücum etsə və mən özümü qorumaq üçün ona qarşı tədbir görsəm, bu, qanun qarşısında necə qiymətləndirilir? Belə halda məsuliyyət daşıyırammı?*

***Kərim ƏLİZADƏ,***
***Bakı şəhəri***

✓ - Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən zəruri müdafiə - şəxsin öz hüquq və azadlıqlarını, eləcə də digər şəxslərin hüquqlarını və qanuni mənafelərini hüquqazidd hücumdan qorumaq məqsədilə etdiyi müdafiə tədbiridir. Bu müdafiə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 36-cı maddəsi ilə tənzimlənir. Həmin maddəyə görə, zəruri müdafiə vəziyyətində, yəni özünü müdafiə edənin və ya başqa şəxsin həyatını, sağlamlığını və hüquqlarını, dövlətin və cəmiyyətin mənafelərini qəsd edənə zərər vurmaq yolu ilə ictimai təhlükəli qəsddən qoruyarkən törədilmiş hərəkət, zəruri müdafiə həddini aşmamışdırsa, cinayət sayılmır. Hərəkətin zəruri müdafiə hesab olunması üçün hücum real və mövcud olmalıdır, lakin gələcəkdə mümkün ola biləcək təhlükəyə qarşı qabaqlayıcı tədbirlər zəruri müdafiə hesab edilmir. Qəsd hüquqa zidd olmalıdır. Məsələn, dövlət qulluqçusunun qanuni fəaliyyəti zamanı müqavimət göstərmək zəruri müdafiə sayılmır. Müdafiənin ölçüsü zəruri həddi keçməməlidir. Yəni müdafiə ilə hücum arasında balans olmalıdır. Eyni zamanda nəzərə almaq lazımdır ki, qəsdin xarakterinə və ictimai təhlükəlilik dərəcəsinə açıq-aşkar uyğun gəlməyən qəsdən törədilən hərəkətlər zəruri müdafiə həddini aşmaq hesab edilir.

Beləliklə, əgər bir şəxs sizə qanunsuz şəkildə hücum edirsə və siz özünüzü qorumaq üçün uyğun tədbir görürsünüzsə, bu, zəruri müdafiə sayılır və zəruri müdafiə həddini aşmamışsınızsa, cinayət məsuliyyətiniz yaranmayacaqdır.

**Sualları cavablandırdı:**
**Fərhad NƏCƏFOV,**
**Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü**


## OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

*2025-ci il üçün abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Azərmətbuatyayımı" ASC* | (012) 441-19-91, (050) 322-33-17 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*





# "Sabah" və "Araz-Naxçıvan" üçün "pley-off"da potensial rəqiblər hansı klublardır

**Avqustun 4-ü İsveçrənin Nyon şəhərində UEFA Konfrans Liqasının pley-off mərhələsinin püşkü atılacaq. Həmin gün Azərbaycan təmsilçiləri "Araz-Naxçıvan" və "Sabah" komandaları da potensial rəqiblərini öyrənəcək.**

Hazırda hər iki klub 3-cü təsnifat mərhələsindədir. "Araz-Naxçıvan" Kiprin "Omoniya", "Sabah" isə Bolqarıstanın "Levski" klubu ilə qarşılaşacaq.

Püşkatmada Elmar Baxşıyevin rəhbərlik etdiyi "Araz-Naxçıvan" - "Ominiya" cütü səpələnmişlər səbətində (Kipr təmsilçisinin yüksək reytinqinə görə), "Levski" - Sabah" cütü isə səpələnməmişlər səbətində yer alacaq. "Sabah" mərhələ adlaya bilsə, "böyük beşlik" ölkələrinin komandalarından biri ilə də qarşılaşa bilər.

"Araz-Naxçıvan"ın mümkün rəqibləri aşağıdakı cütlüklərdən birinin qalibi olacaq:

"Larn" (Şimali İrlandiya) - "Santa Klara" (Portuqaliya); "Lozanna Sport" (İsveçrə) - "Astana" (Qazaxıstan); "Klaksvik" (Farer adaları) - "Neman" (Belarus);"Vikinqur" (İslandiya) - "Brondby" (Danimarka);"Hayduk" (Xorvatiya)




- "Dinamo Siti" (Albaniya); "Riqa" (Latviya) - "Beitar" (İsrail); "Aris" (Kipr) - AEK (Yunanıstan); "Banik" (Çexiya) - "Austria" (Avstriya); "Universitatya Krayova" (Rumıniya) - "Spartak Trnava" (Slovakiya); "Rusenborq" (Norveç) - "Hammarbü" (İsveç); AİK (İsveç) - "Dyor" (Macarıstan); "Kauno Jalgiris" (Litva) - "Arda" (Bolqarıstan); "Polesye" (Ukrayna) - "Pakş" (Macarıstan).

Həmçinin Avropa Liqasının 3-cü təsnifat mərhələsində məğlub olacaq bu cütlərin uduzan komandaları da mümkün rəqib ola bilər: "Servette" (İsveçrə) - "Utrext" (Niderland); PAOK (Yunanıstan) - "Volfsberq" (Avstriya); "Fredrikstad" (Norveç) - "Midtyulland" (Danimarka); AEK (Kipr) - "Legiya" (Polşa); "Hekken" (İsveç) - "Brann" (Norveç)

"Sabah"ın mümkün rəqibləri: "Fiorentina" (İtaliya); "Kristal Pelas" (İngiltərə); "Rayo Valyekano" (İspaniya); "Mainz 05" (Almaniya); "Strasburq" (Fransa).

Həmçinin aşağıdakı cütlərin qalibləri:

AZ Alkmaar (Niderland) - "Vaduts" (Lixtenşteyn); "Rapid" (Avstriya) - "Dandi Yunayted" (Şotlandiya); "Anderlext" (Belçika) - "Şerif" (Moldova); "Vikinq" (Norveç) - "Başakşəhər" (Türkiyə); "Partizan" (Serbiya) - "Hibernian" (Şotlandiya); "Rakuv" (Polşa) - "Makkabi Hayfa" (İsrail); "Balkani" (Kosovo) - "Shamrock Rovers" (İrlandiya); "St. Patricks" (İrlandiya) - "Beşiktaş" (Türkiyə); "Silkeborg" (Danimarka) - "Yagelloniya" (Polşa).

Bundan əlavə, Avropa Liqasının 3-cü mərhələsində uduzan bu cütlərin məğlub tərəfləri də rəqib ola bilər: "Panatinaikos" (Yunanıstan) - "Şaxtyor" (Ukrayna); "CFR Kluj (Rumıniya) - "Braqa" (Portuqaliya).

Qeyd edək ki, püşkatma avqustun 4-ü saat 16:00-da başlayacaq. Pley-off oyunları isə 21 və 28 avqust tarixlərində keçiriləcək.

## "UEFA-da buna inanmırlar"

**"Araz-Naxçıvan"ın məşqçisi Əfran İsmayılov UEFA Konfrans Liqasındakı mübarizələri ilə bağlı danışıb. O, mətbuata açıqlamasında əvvəlcə 2-ci təsnifat mərhələsinin cavab oyunu çərçivəsində Yunanıstanda "Aris"lə keçirilən oyundan (2:2) və komandanın avrokuboklarda uğurlu debüt etməsi ilə bağlı fikirlərini bölüşüb:**




"Həqiqətən turu keçmək, qələbələr gözəldir. Amma belə bir azarkeşlərin içində üstün olmaq lap möhtəşəmdir. Tribunaya Ermənistan bayrağı da gətirmişdilər. Oyun başlayanda da, bitəndə də bizə söyürdülər. Belə bir atmosferdə üstün olub mərhələ keçmək həqiqətən möhtəşəmdir. Heç nəyə fikir vermədik. Komanda kimi yığıldıq, dedik ki, heç bir təxribata getmək lazım deyil. Əsas odur ki, istədiyimizə nail olduq. Bu tək bizim yox, bütün Azərbaycan xalqının qələbəsidir. "Aris" çox yaxşı komandadır, güclü, keyfiyyətli futbolçuları var. Amma biz daha yaxşı oynadıq. Şükürlər olsun ki, ilk mərhələni keçdik. Bəli, böyük qələbədir. Çünki avrokuboklarda debüt ilidir. İki ildir yüksək liqada çıxış edirik. UEFA-da buna inanmırlar".

Ə.İsmayılov oyundan sonra komandalar arasında yaşanan insidentlə bağlı isə bunları deyib: "Uduzmağı qəbul etmirdilər. Biz də komandanı başa saldıq ki, belə şeylər olacaq, fikir vermək lazım deyil. Futbolçuları yığıb paltardəyişmə otağına yollandıq. Əslində Yunanıstan klubu ilə oyunda belə təxribatın olması gözlənilən idi. Amma biz də öz oyunumuzla sübut etdik ki, güclüyük".

## "Özümü qalib kimi hiss edirəm"

**"Komandamıza göstərdikləri əzmkar, mübariz oyuna görə təşəkkür etmək istəyirəm. Mətbuat konfransında da demişdim ki, böyük azarkeş kütləsi qarşısında oynamağımıza baxmayaraq, zövq alacağıq. Səfərdə güclü rəqibə qarşı çıxış etsək də, ilk dəqiqələrdən aqressiv oynamağa çalışdıq. Bu, bizdə çox yaxşı alınırdı".**

Bu sözləri "Zirə"nin baş məşqçisi Rəşad Sadıqov Konfrans Liqasının 2-ci təsnifat məhələsində "Hayduka qarşı keçirdikləri cavab görüşü (1:2, ilk oyun - 1:1) haqda deyib.

O, matçı və turnirlə vidalaşmaqlarını şərh edib: "Ani bir diqqətsizlikdən sonra qol buraxdıq. Marko Livayanın ustalığı sayəsində hesab açıldı. Yenə də matçboyu oyunumuza sadiq qaldıq, hücumlara atılmağa çalışırdıq. Ən vacib dəqiqələrdə qırmızı vərəqə aldıq, meydanda azlıqda qaldıq. Amma hesabı bərabərləşdirdik. Əlavə vaxtda 10 nəfərlə oynayıb başabaş mübarizə aparmaq çox çətin idi. Amma futbolçularımız əllərindən gələnin artığını edirdilər. Rəqib cərimə zərbəsini çox yaxşı yerinə yetirdi və əla qol vurdu. Yenə də oyundan qopmadıq. Çalışdıq ki, hesabı bərabərləşdirək. Amma artıq bizdə alınmadı. Futbolçularımı bağrıma basıram. Bu oyun göstərdi ki, biz inkişafdayıq, gündən-günə böyüyürük. Bu gün məğlub olsaq da, özümü qalib kimi hiss edirəm".

Mütəxəssis əlavə vaxtda "Hayduk"un vurduğu qələbə qolundan da söz açıb: "Təbii ki, hesabda geridə olanda qol buraxmamağa və imkan düşən kimi qol vurmağa çalışırsan. Amma əlavə vaxt başlayan kimi hakim cərimə zərbəsi təyin etdi. Rəqib də bundan ustalıqla yararlandı, yenə hesabda geriyə düşdük. Halbuki o dəqiqələrdə qol buraxmasaydıq, rəqib gərginləşəcəkdi. Bu halda da bizim əks-hücumlarımız, standart vəziyyətlərimiz daha təhlükəli ola bilərdi. Sadəcə olaraq, 95-ci dəqiqədə qol vurdular".

***Hazırladı:***
***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***


**«AZƏRBAYCAN» qəzetinin reklam xidməti**

**539-49-20**

**Qəzetin daim yenilənən rəsmi internet ünvanı:**

**www.azerbaijan-news.az**


## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının əməkdaşları iş yoldaşları

**SƏBİNƏ FƏRƏCOVANIN**

vaxtsız vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və | |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Məsul katib | - 539-43-23, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib müavinləri | - 539-44-91, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 3793**
**Sifariş 1555**

**Qiyməti 60 qəpik**